www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8-10 mart 2025-ci il Şənbə № 44 (8654) Qiymıəti 60 qəpik

**Xəbər**

**Bu gün Qadınlar bayramıdır**

yazısı səh.10-da

**Gündəm**

### Avropadan Azərbaycana növbəti həmlə



Ermənilərin məhkəməsi ilə bağlı yeni qətnamə hazırlanır - Sərt etiraz

yazısı səh.9-da

### Vardanyana daha sərt cəza istənilir - reaksiya

yazısı səh.5-də

### Azərbaycanın 1 nömrəli düşməni kimdir?

yazısı səh.6-da

### Restoranlarda iftar süfrəsi reklamı - İlahiyyatçı deyir ki...

yazısı səh.12-də

### Tramp Zelenskini devirir? - gizli görüşün detalları...

yazısı səh.15-də

### Rus səfirdən anti-Türkiyə gedişi

yazısı səh.6-da

### Paytaxtda "yaşıl dalğa" əmri - Şəhəri necə xilas etməli?

yazısı səh.12-də

### Evlənmək istəyənlərin psixoloji testdən keçməsi qanunilәşə bilər

yazısı səh.11-də

### Moody's-dan Azərbaycan haqda nikbin proqnoz - Şərh

yazısı səh.13-də

**Ramazan ayının 8-ci günü**

İftar 18.54. İmsak 03.36-dək (Bakı)

8-ci günün duası: "İlahi, bu gün məni yetimlərə rəhm edən, Sənin yolunda yoxsullara yemək bəxşiş edənlərdən və salamı ucadan verənlərdən qərar ver! Məni Öz nemətinlə kəramətli və yaxşı insanlarla yoldaş et! Fəzl və bəxşişinə and verirəm, ey arzu edənlərin Pənahı!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# ERMƏNİSTAN MÜHARİBƏYƏ SÜRÜKLƏNİR - BRÜSSELDƏN BAKIYA QARŞI DAHA BİR XAİNLİK

Avropanın "sülh" fondu İrəvanı savaşa hazırlayır; daha 10 milyon avro...

yazısı səh.8-də



# Hacıyevlərin qaçırdıqları pullarla bağlı şok gəlişmə

Sabiq bankirin xanımının malikanəsi və qolf klubu satışa çıxarılıb; vəsaitin 70 faizi Azərbaycana qaytarılacaq

yazısı səh.3-də



*Novella Cəfəroğlu:*

### "Aliment nə qədərdir ki, bir qadın ailəsini dağıtsın?"

yazısı səh.14-də



İşxan Verdiyan

### Bakı erməni fəalına sığınacaq verə bilərmi? - reaksiya

yazısı səh.5-də



Arzu Nağıyev

### Deputat dronla Azərbaycana narkotik gətirilməsindən danışdı

yazısı səh.3-də

# Bu cərimələrin yarısı hərbçilərin maaşına əlavə ediləcək



"Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunun tələblərinin pozulmasına görə tətbiq edilən cərimələrdən toplanan vəsaitin 50 faizi hərbi qulluqçuların aylıq vəzifə (tarif) maaşlarına əlavə veriləcək. Bu, Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanun təklif edilən dəyişikliklə əksini tapıb. Layihəyə əsasən, bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən toplanan vəsaitin 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidmət keçən hərbi qulluqçuların aylıq vəzifə (tarif) maaşlarına əlavənin verilməsi üçün həmin orqanın (qurumun) hesabına köçürüləcək. Həmin vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək. Qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.



## Prezident bu rayona 1,5 milyon manat ayırdı

**Prezident İlham Əliyev Bərdə rayonunun Əmirli-Xanağalı-Uğurbəyli və Alpout-Qarayusifli-Tumaslı avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

"Yeni Müsavat" xəbər verir ki, Sərəncamda bildirilib ki, on beş min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Əmirli-Xanağalı-Uğurbəyli və Alpout-Qarayusifli-Tumaslı avtomobil yollarının əsaslı təmiri məqsədilə 1,5 milyon manat Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyinə Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, İqtisadiyyat Nazirliyinə Sərəncamda göstərilən avtomobil yollarının əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutmaq tapşırılıb. Nazirlər Kabinetinə Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.



## Baş nazir yeni qərar imzaladı

**Nazirlər Kabineti "Texniki tənzimləmənin şamil olunduğu malların siyahısı"nı təsdiq edib. Musavat.com xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb. Qərar ölkə Prezidentinin 23 yanvar 2023-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədilə qəbul olunub. Qərarda Texniki tənzimləmənin şamil olunduğu malların siyahısı və həmin mallara dair xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodlar verilib. Qərar malların "Texniki tənzimləmə haqqında" qanuna əsasən qəbulu nəzərdə tutulan texniki reqlamentlərin tələblərinə uyğunluğuna istehlak bazarında nəzarətin həyata keçirilməsinə şərait yaradacaq.**

## 8 martda 18 dərəcə isti olacaq

**Martın 8-də gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-qərb küləyi gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 4-8° isti, gündüz 13-18° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 60-65 %, gündüz 50-55 % olacaq.**

## Suriyadakı qarşıdurmalarda 70 nəfər ölüb

**Suriyanın Latakiya vilayətində yeni hökumətin təhlükəsizlik qüvvələri ilə devrilmiş prezident Beşər Əsədin tərəfdarları arasında qarşıdurma baş verib. Məlumatı "Associated Press" agentliyi yayıb. Məlumata görə, Latakiya və onun ətraf ərazilərində təhlükəsizliyin təmin edilməsinə dair genişmiqyaslı əməliyyata hazırlıq çərçivəsində İdlibdən vilayətə iri həcmdə hərbi qüvvələr gətirilib. Tərəflər arasında qarşıdurmaya da məhz bu səbəb olub. Buna cavab olaraq Suriya rəhbərliyi Latakiya, eləcə də Tartusa əlavə qüvvələr göndərib. Latakiyada döyüşlər nəticəsində azı 48 nəfər həlak olub. Ümumilikdə bir neçə yaşayış məntəqəsində qarşıdurma zamanı təqribən 70 nəfər ölüb, daha onlarla insan isə yaralanıb. Ölənlərin 35-i Suriya Müdafiə Nazirliyinin və Daxili İşlər Nazirliyinin əməkdaşlarıdır. Bununla yanaşı, hərbi əməliyyat səbəbindən Latakiya, Tartus və Həmsda 24 saatlıq komendant saatı elan edilib. Xatırladaq ki, Suriyada Beşər Əsəd hakimiyyəti ötən ilin dekabrında devrilib. Nəticədə B.Əsəd ailəsi ilə Moskvaya təxliyə edilib.**



## İrandan narkotik gətirildi, qarşısı alındı

**Külli miqdarda narkotik vasitənin Azərbaycana keçirilməsinin qarşısı alınıb. Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən bildirilib. Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qaçaqmalçılıq və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı keçirilmiş sərhəd axtarış və əməliyyat tədbirləri nəticəsində mart ayının 5-də saat 20:55-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunları Komandanlığının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində ümumi çəkisi 42 kiloqram 950 qram narkotik vasitə (39 kq 650 qram marixuana, 3 kq 300 qram tiryək) və 100 ədəd narkotik tərkibli metadon M - 40 həbinin qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikası ərazisinə keçirilməsinin qarşısı alınıb. Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.**

## 6 uşaq anası özünü öldürdü



**Göyçayda intihar hadisəsi baş verib. Martın 6-sı Göyçay rayon sakini 1982-ci il təvəllüdlü Gülnarə Səmədova yaşadığı İnçə kəndindəki evin həyətində özünü asıb. Faktla bağlı araşdırma aparılır. Göyçay rayonu İnçə kənd bələdiyyəsinin sədri Namiq Baxışov hadisənin ailə münaqişəsi zəminində baş verdiyini bildirib: "Qadın İsmayıllının kəndindəndir. Hadisə ailə münaqişəsi zəminində olub. Əri Gülnarənin işləməyini istəməyib. Onların altı uşağı var. Uşaqlarının böyüyü məktəbi bitib, o birilər də məktəblidirlər. Əri deyib ki, müavinət alırsan, bəsdir, işləmə. Əri özü mal-qara otarmaqla məşğuldur. Qadın da kənd camaatı ilə qonşu kəndlərdə torpaqda işləməyə, fəhləliyə gedirmiş ki, əlavə pul qazansın. Əri bundan narazı olub, qadın isə getməkdə israr edib. Bunun üstündə mübahisə ediblər, kişi çıxıb gedib, qayıdanda da görüb ki, qadın özünü asıb. Anası və qardaşı mərhumun nəşini aparıblar İsmayıllıya, öz kəndlərində dəfn ediblər".**

## Binəqədidə silah-sursat tapıldı

**Polis əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silahların əməliyyat yolu ilə aşkarlanması və könüllü təhvil verilməsi istiqamətində tədbirlər davam etdirilir. Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Binəqədi Rayon Polis İdarəsinin 7-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri növbəti tədbir nəticəsində rayon ərazisində 1 avtomat silahı, 1 patron darağı və 19 patron tapılaraq götürülüb. Faktla bağlı araşdırma aparılır.**

## Özünü elektrik cərəyanına verərək öldürdü

**Goranboyda dəhşətli intihar hadisəsi baş verib. Musavat.con xəbər verir ki, 1960-cı il təvəllüdlü Əliyev Paşa Yaşar oğlu yaşadığı Yəhərçi kəndindəki evdə özünü elektrik cərəyanına verərək intihar edib. 65 yaşlı kişi hadisə yerində ölüb. Onun intiharı ilə bağlı Goranboy Rayon Prokurorluğunda araşdırma aparılır.**



## Bayramov Səudiyyə Ərəbistanına getdi

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərinə işgüzar səfərə yola düşüb.**

Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, səfər çərçivəsində nazir Ceyhun Bayramovun İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının fövqəladə iclasında iştirakı, habelə bir sıra ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.



## Beyləqanda da spirtli içki can aldı

**Beyləqanda zəhərlənmə faktı qeydə alınıb. İlkin ehtimala görə, spirtdən zəhərlənən 1996-cı il təvəllüdlü Səyyad Vəlizadə həyatını itirib. Qohumları onun spirtli içkidən zəhərləndiyini bildirib. Faktla bağlı Beyləqan rayon prokurorluğunda araşdırma aparılır.**

## Tramp Xameneiyə məktub göndərdi

**ABŞ Prezidenti Donald Tramp İranın Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneiyə məktub göndərib. Tramp "Fox" kanalına müsahibəsində deyib. Tramp dünən Xameneiyə məktub göndərdiyini və nüvə proqramı ilə bağlı İranla razılaşmaya üstünlük verdiyini bəyan edib. "Mən İranla razılaşmağa üstünlük verirəm, Xameneiyə məktub göndərdim. İranın nüvə silahı və başqa variantları ola bilməz", - ABŞ lideri qeyd edib.**

## Rusiyanın 1 milyard dolları Ukraynaya verildi

**Ukrayna Rusiyanın Böyük Britaniyada dondurulmuş aktivlərindən ilk transı alıb. TASS məlumat yayıb.**

"Ukrayna tərəfi Böyük Britaniyanın dəstəyi ilə Rusiyanın xaricdə dondurulmuş aktivlərinin ilk hissəsini əldə edib. Bu məbləğ təxminən 1 milyard dollar təşkil edir. Bu vəsaitdən Ukraynanın müdafiə qabiliyyətini gücləndirmək üçün istifadə olunacaq", - məlumatda deyilir.

YENİ MÜSAVAT
N 44 (8654) 8 mart 2025

# Hacıyevlərin Londona qaçırdıqları pullarla bağlı şok gəlişmə

## Sabiq bankirin xanımının malikanəsi və qolf klubu satışa çıxarılıb, vəsaitin 70 faizi Azərbaycana qaytarılacaq

**Azərbaycan Beynəlxalq Bankın keçmiş rəhbəri Cahangir Hacıyevin xanımı Zamirə Hacıyevanın Londondakı malikanəsi və qolf klubu satışa çıxarılıb. Mal-mülkə ilkin olaraq 19 milyon 500 min funt sterlinq qiymət qoyulub. Zamirə Hacıyeva Milli Cinayətkarlıqla Mübarizə Agentliyinin (NCA) 6 illik təhqiqatından sonra Askotdakı qolf klubunun və Naytsbricdəki evinin müsadirəsinə razılaşıb.**

Ötən ilin payızında bu aktivlərin satışa çıxarılacağı bilinib. Britaniyanın Milli Cinayət Agentliyi deyib ki, Zamirə Hacıyeva bu dəbdəbəli əmlakı Azərbaycanda "külli miqyasda dələduzluq və mənimsəmə, saxta uçot və çirkli pulların yuyulması yolu ilə dövlət bankının talanması nəticəsində" əldə edib. Zamirə Hacıyeva məhkəmə boyu ittihamları qəbul etməyib. O, Britaniya məhkəməsində deyib ki, əri bank sədri olmazdan öncə, uğurlu biznesləri sayəsində müstəqil var-dövlət qazanmış qanuni iş adamı olub. Məhkəmə ondan mübahisə obyekti olan var-dövlətinin qanuni maliyyə mənbəyini göstərməyi tələb edirdi. Əvvəlki məhkəmələrdə Hacıyevaya aid aktivlərin ümumi məbləği 26 milyon funtdan çox, təxminən 56 milyon manat dəyərləndirilib.

Zamirə Hacıyeva ilə razılaşmaya əsasən, əmlaklar satışından əldə olunan vəsait Britaniya dövlətinin nəzarətində olacaq. Zamirə Hacıyevaya əmlakların hərracla satışından əldə edilən məbləğin 30 faizi veriləcək. 70 faizdən isə Milli Cinayət Agentliyinin xərcləri çıxılacaq və sonra yerdə qalan vəsait Azərbaycana qaytarılacaq. Hacıyevanın hüquqlarını qoruyan Gherson vəkillik şirkətinin açıqlamasına görə, Zamirə Hacıyeva ona görə razılaşmaya gedib ki, onu müdafiə etmək mümkün olmayıb.

Cahangir Hacıyev 2001-2015-ci illərdə Azərbaycan Beynəlxalq Bankının idarə heyətinin sədri olub, hazırda vəzifə saxtakarlığı, vergidən yayınma və mənimsəmə ittihamları ilə 16 illik həbs cəzası çəkir. NCA ötən il bildirmişdi ki, qolf klubu və evin irimiqyaslı dələduzluq, mənimsəmə, saxta mühasibatlıq və çirkli pulyuma nəticəsində əldə olunmasına inanır. Qurumun məlumatına görə, bu aktivlərin alınmasında istifadə olunan vəsaitin mənbəyinə dair "ağlabatan" izah tapılmayıb. Qolf klubu 4.25 milyon funt-sterlinqə, ev isə 14.75 milyon funt-sterlinqə satışdadır. Vaxtilə Hacıyevanın "Harrods" ticarət mərkəzində 10 il ərzində 16 milyon funt-sterlinq (21.3 milyon dollar) xərclədiyi üzə çıxmışdı, onun 4.9 milyonu zinət əşyalarına sərf olunmuşdu. NCA sözçüsü ötən il deyirdi ki, qolf klubu və evin satışından əldə olunan pulun 70 faizi hökumətə keçəcək, 30 faizi Zamirə Hacıyevaya qaytarılacaq. Zamirə Hacıyeva üçün işləyən hüquq firması ötən il bildirmişdi ki, o və ailəsi "indi öz həyatlarına davam edə bildikləri üçün xoşbəxtdirlər". "Gherson LLP" onu da bildirib ki, Böyük Britaniyada istintaq apardığı müddətdə Azərbaycan hakimiyyəti Hacıyeva və vəkillərinin Bakıda həbsxanada Cahangir Hacıyevlə əlaqə qurmasına qəsdən mane olub. Azərbaycan hakimiyyətinin bu iddiaya münasibəti bəlli deyil. Cahangir Hacıyev Beynəlxalq Bankdan kredit kimi götürülmüş 4 milyard 700 milyon manatlıq mənimsəmədə təqsirli bilinib. Amma özünü təqsirli bilməyib. O, həmin vəsaitlərin layihələrə xərcləndiyini, əldə olunan gəlirlərdən kreditlərin ödənildiyini bildirir. Onun sözlərinə görə, kreditlər hesabına yaradılan işlək müəssisələr onun həbsindən sonra ələ keçirilib. Lakin onları nə satıb tam məbləği bağlayıblar, nə də əldə olunan vəsaitlərdən kreditləri ödəyiblər.



Zamirə Hacıyeva ilə bağlı araşdırmalar başlarkən, onun Londonun məşhur mağazası Harrodsda təxminən 35 milyon manat xərcləməsi ilə dünya mediasının diqqətini çəkib. Bu, günə təxminən 7-8 min manat deməkdir. O, çay və qəhvəyə təxminən 50 min, meyvə və tərəvəzə 21 min, Godiva şokoladlarına 69 min manat xərcləyib, Britaniya mediası məhkəmə sənədlərinə istinadən yazıb. Məhkəmədə o da aşkar olunub ki, Hacıyeva bu 10 il ərzində təxminən 545 min manat oyuncaq mağazasında xərcləyib. Bundan başqa, o bu illər ərzində on minlərlə manatlıq zinət əşyası və geyim alıb.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Narkotiki indi də Azərbaycana dronla, qayıqla daşıyırlar

## Deputat: "Hazırda İrandan dronlar vasitəsilə narkotiklərin daşınması həyata keçirilir"



**Dövlət sərhədində müşahidə edilən uçuş aparatı zərərsizləşdirilib. Bu barədə Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən bildirilib. Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qaçaqmalçılığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri uğurla davam etdirilir.**

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunları Komandanlığının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisindən ümumi çəkisi 515 qram narkotik vasitə heroinin kiçik həcmli PUA vasitəsilə ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb. Faktla bağlı əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Bir müddət əvvəl "Şahdağ" sərhəd gözətçi gəmisi Xəzər dənizinin Azərbaycana mənsub bölməsinin Ələt reydi istiqamətində cənuba doğru hərəkət edən naməlum hədəf aşkar edib. Sərhəd gözətçi gəmisinin sürətli manevrləri nəticəsində Xəzər dənizinin Azərbaycana mənsub bölməsinin cənub istiqamətində Kürdili adası reydində "Yamaha-200" mühərriki ilə təchiz edilmiş iki nəfər həyat üzvü olan itisürətli qayıq saxlanılıb. Dəniz sərhədini pozduqlarına görə saxlanılmış qayığın heyət üzvlərinin İran İslam Respublikası vətəndaşları, Yusifinecat Mehran Tağı oğlu və Şəhram Mahmudi Qafur oğlu olduqları müəyyən edilib. Fevral ayının 26-da isə saat 19:40-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində külli miqdarda narkotik vasitənin qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb. Keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində xidməti ərazidən ümumi çəkisi 42 kiloqram 550 qram narkotik vasitə (41 kq 535 qr marixuana; 1 kq 015 qr metafetamin) aşkar olunaraq götürülüb.

Sirr deyil ki, Azərbaycana narkotik ən çox İrandan daşınır. Vaxtilə torpaqlarımız işğalda olanda həmin ərazilərdən nəzarətsiz zona kimi narkoqaçaqçılar istifadə edib, indi bu imkan yoxdur, alternativ yollarla narkotranzitin təşkilinə cəhdlər var.



Arzu Nağıyev

Deputat, narkotiklərlə mübarizəyə "Qara kabus" adlı kitab həsr edən təhlükəsizlik məsələləri üzrə ekspert Arzu Nağıyev "Yeni Müsavat"a deyib ki, ölkə ərazisində ələ keçən narkotiklərin İrandan daşınması təsadüfi deyil: "Qarabağ işğaldan azad olunandan sonra 140 kilometrlik İran-Azərbaycan sərhədində vəziyyət tam şəkildə nəzarətə götürülüb. Azərbaycanın hüquq-mühafizə orqanları illərdir ki, bu istiqamətdə işlər görür, ölkə ərazisinə narkotiklərin daşınması, yayılmasının önlənməsi üçün addımlar atılır. Lakin narkoticarətçilərə qarşı aparılan mübarizə, yeni-yeni metodların tətbiqi çox zaman effektiv olmur. Hazırda İran tərəfindən dronlar vasitəsilə Azərbaycan ərazilərinə narkotiklərin daşınması həyata keçirilir. Kiçik ölçülü dronlara narkotik yükləyib neytral əraziyə ötürürlər, drondan narkotiki neytral əraziyə atırlar və yeri barədə ərazimizdə olan narkoşəbəkə üzvlərinə məlumat verirlər. Bilinən faktdır ki, Avropaya daşınan narkotiklər, əsasən də heroin kimi ağır narkotik vasitə əsasən Əfqanıstanda istehsal olunur".

Deputatın sözlərinə görə, İran Əfqanıstanla qonşudur və narkomafiyaların Əfqanıstan-İran-Azərbaycan-Avropa dövlətləri marşrutundan istifadə etmələri illərdir ki, məlumdur: "Bu axın Azərbaycanda istehsalın, istehlakın nə qədər olmasından asılı məsələ deyil. İldən-ilə böyük partiyada ağır narkotiklərin tutulması onu deməyə əsas verir ki, Azərbaycan hüquq-mühafizə orqanlarına əməliyyat məlumatları əvvəlki illərə nisbətən daha çox daxil olmağa başlayıb. Hiss olunur ki, tutulan mallar Azərbaycan üçün deyil, məhz Avropa üçün nəzərdə tutulub. Bu gün qara bazarda 1 qram kokainin qiyməti 400 dollar, eyni çəkidə heroinin qiyməti isə 170 manatdır, yəni 100 dollardır. Əvvəllər 1 qram heroini 5 nəfər istifadəçi alırdısa, hazırda 1 qram heroin 7 hissəyə bölünərək satılır. Əvvəllər narkotiklər əsasən Balkanlar üzərindən daşınırdı. Balkanlarda müharibə qızışdığına görə marşrutu cənub və şimal istiqamətinə dəyişdilər. İran, Rusiya, Azərbaycan, Gürcüstan ərazilərindən istifadə edilərək Avropaya narkotik daşımaları həyata keçirilməyə başlandı. Bu marşrutlar hansısa ölkənin razılığı və ya narazılığı ilə seçilmir. Bu marşrutları narkobaronlar, həmin trafikə nəzarət edənlər müəyyən edir. Onlar bir-iki dəfə marşrutu yoxlayırlar. Əfqanıstandan Avropaya narkotik daşıyanların yeni - "Şimali Balkan yolu" adlandırdığı marşrut məhz Azərbaycandan keçirdi. Əfqanıstan, İran, Azərbaycan, Gürcüstan və Qara dəniz vasitəsilə Bolqarıstana daşınırdı. Hazırda sərhədlərin möhkəmləndirilməsi daşımaları xeyli çətinləşdirir. Köhnə Balkan marşrutu isə İrandan birbaşa Türkiyəyə yönəlirdi. İrandan Türkiyəyə toplanan heroin ya İstanbul vasitəsilə Bolqarıstana, ya Anadolu boyunca - Egey dənizi və Yunanıstana, ya da Hakkaridən şimala - Qara dəniz və Ukraynaya daşınır. Almaniya, İtaliya, Hollandiya, Britaniya bazarlarına heroin məhz bu marşrutlarla gedirdi. Azərbaycanın Qarabağ zonası işğal altında olarkən qanunsuz narkodəstələr həmin ərazilərdə müəyyən laboratoriyalar da saxlayırdı. BMT-nin hesabatlarında bu haqda məlumatlar keçmişdi. 44 günlük Vətən müharibəsinə qədər Qarabağ heroin trafikində önəmli yer tuturdu".

❑ **E.MƏMMƏDƏLİYEV, Musavat.com**

YENİ MÜSAVAT
N 44 (8654) 8 mart 2025

# Aİ "casus"ları yenə Qazaxla sərhəddə...

## Ərazilərimizi "binokl"la müşahidə edən avropalı "kəşfiyyatçı"ların hərəkətləri qeydə alınıb

**Avropa İttifaqının (Aİ) Ermənistandakı Müşahidə Missiyasının üzvləri növbəti dəfə Azərbaycanla həmsərhəd ərazilərdə müşahidə aparıblar. "Yeni Müsavat" xəbər verir ki, Aİ müşahidəçiləri martın 7-də Qazax rayonu ilə həmsərhəd əraziyə gəlib, binoklla Azərbaycan ərazilərini müşahidə ediblər. Azərbaycan sərhədçiləri müşahidə missiyasının hərəkətlərini qeydə alıb. Avropa İttifaqının Ermənistandakı Müşahidə Missiyası mütəmadi olaraq Azərbaycanla sərhəd boyu müşahidələr aparıb. Bu barədə mətbuatda məlumatlar və görüntülər yayılıb. Avropa İttifaqının Ermənistanın Azərbaycanla sərhədindəki 200 nəfərlik müşahidə missiyasının mandatı 19 fevral 2027-ci ilədək uzadılıb.**

Yada salaq ki, Prezident İlham Əliyev Belçika Krallığının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən, Bakı ilə İrəvan arasındakı sülhyaratma prosesində Aİ-yə etimadsızlıq doğuran faktorlardan biri kimi, məhz sözügedən missiyanı önə çəkmişdi. Dövlət başçısı belə bir təsisatın qalmasının Azərbaycan-Aİ münasibətlərində də etimadsızlıq yaratdığını vurğulamış və əlavə etmişdi ki, 2023-cü ildə "Avropa müşahidəçilər missiyasının" müddəti ölkəmizin razılığı olmadan, hətta bizimlə məsləhətləşmədən uzadılıb. Dövlətimizin başçısı "Binokl diplomatiyası"nın qəbuledilməz olduğunu, normal siyasi mədəniyyət standartlarından kənarlığını bildirmiş, habelə, Azərbaycanın Aİ ilə təmaslarında bu məsələnin qaldırılacağını dilə gətirmişdi. Cənubi Qafqazda yaranan yeni reallıqları qəbul etmək istəməyən Avropa İttifaqı (Aİ) destruktiv fəaliyyətini davam etdirir. İkinci Qarabağ müharibəsindən




sonra bölgədə tələb olunan sülh, sabitlik və əməkdaşlıq mühitidir. Fransa başda olmaqla bir çox Aİ ölkələri isə açıq-aydın buna qarşı çıxır. 2023-cü ilin fevralında Aİ müşahidəçiləri Ermənistana yerləşəndə dedilər ki, bu, İrəvanla Bakı arasında münasibətlərin normallaşmasına töhfə vermək üçündür. Lakin sonradan göründü ki, Aİ-nin niyyəti tam başqadır. Proseslərin gedişi göstərir ki, Aİ-nin "binokl diplomatiyası"nın bir neçə əsas məqsədi var. Birincisi, Aİ bu missiyadan Cənubi Qafqaza soxulmaq üçün istifadə edir. İkincisi, Ermənistanı öz təsirində saxlayır. Üçüncüsü, Rusiyanın Ermənistan üzərindəki təsirini zəiflədir. Dördüncüsü, mümkündür ki, Aİ bu missiya vasitəsilə Ermənistanı təhlükəsizlik təminatı verməklə yanaşı, həm də gizli təlimlər keçir. Hər halda Aİ-nin, o cümlədən onun əsas üzvlərindən biri olan rəsmi Parisin ritorikası bu ehtimal barədə düşünməyə əsas verir. Aİ-nin Ermənistandakı missiyasının mülki təyinatlı olmağını, konkret olaraq siyasi məqsədlərə xidmət etdiyini təsdiqləyən kifayət qədər fakt var. Məsələn, Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov bildirib ki, bu missiya Azərbaycan, İran və Rusiya əleyhinə kəşfiyyat məlumatları toplayır. Aİ "müşahidəçiləri"nin erməni hərbçilərlə birgə sərhəd "reydləri"ni Ermənistanda revanşist qüvvələrin aktivləşməsi, ölkənin silahlandırılması, danışıqlarda daha qeyri-konstruktiv mövqe tutması kimi qiymətləndirmək olar. Bununla bir daha nümayiş etdirir ki, Azərbaycan və Ermənistan arasında sülhün əldə olunmasında maraqlı deyil. Əksinə, Ermənistanı revanşizmə həvəsləndirir, Azərbaycanla sülh danışıqlarından çəkilməyə sövq edir.

❑ **Nìgar HƏSƏNLÌ, "Yenì Müsavat"**

# Kreml Minsk Qrupunu "xortladır"?




**Azərbaycanın Ermənistanla sülh müqaviləsi üçün 4 şərt-tələbi bəlli. Onlardan biri də ATƏT-in üzdəniraq Minsk Qrupunun (MQ) rəsmən ləğvi ilə bağlıdır. Birinci o səbəbə ki, artıq "Dağlıq Qarabağ" adlı konflikt yoxdur və deməli, bu quruma da ehtiyac qalmayıb. İkincisi MQ, özəlliklə onun həmsədrləri 26 illik fəaliyyət dövründə faktiki erməni işğalını rəsmiləşdirməyə çalışıblar. Üçüncü yandan isə 44+1 günlük müharibədən sonra yerdəki reallıqlar bambaşqadır. Qarabağda xunta rejiminin, erməni separatizminin kökü artıq kəsilib, onların rəhbərləri Bakıda ədalət məhkəməsində mühakimə olunur, Azərbaycan həmçinin "Böyük Qayıdış"la, ərazilərin minalardan təmizlənməsi ilə məşğuldur - hansı işləri ki, müstəsna olaraq öz resursları hesabına, Qərbdən, Rusiyadan heç bir ciddi yardım olmadan həyata keçirir.**

Qarabağa ermənilərin geri dönüşünə gəlincə, bu məsələdə də Bakının haqlı tələbi məlum: keçmiş erməni sakinlər öncə konstitusiyamızı, bayrağımızı qəbul eləməlidirlər. Eyni qaydada, "güzgü prinsipi" üzrə azərbaycanlı qaçqınların Ermənistana qayıdışına şərait yaradılmalı, onların təhlükəsizliyinə təminat verilməlidir...

Göründüyü kimi, MQ-lik bir iş qalmayıb. Bunu Ermənistanda radikal-revanşistlər xaric, ağlı az-çox olanların hamısı anlayır. Baş nazir Nikol Paşinyan da MQ-nin yuridik ləğvini istisna eləməyib. Hərgah bu yöndə gərəkən addımı atmağa tələsmir.

Maraqlıdır ki, sadalanan gerçəkliklər fonunda Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin "Minsk Qrupu ətrafında vəziyyətin dəyişdiyi"ni bildirib. Diplomat xatırladıb ki, MQ-nin qərbli həmsədrləri (ABŞ və Fransa) rusiyalı həmkarı ilə işləməkdən imtina edib. Lakin səfirin sözlərinə görə, "format indi müzakirə oluna bilər, baxmayaraq ki, bir həmsədr (Fransa - Z.S.) rusofob mövqe tutur, ikincisi (ABŞ - Z.S.) isə Rusiyaya qarşı siyasətini yenidən nəzərdən keçirir" deyib.

Halbuki Rusiya XİN-in başçısı Sergey Lavrov, eləcə də omun sözçüsü Mariya Zaxarova ötən il və ondan qabaqkı dönəmlərdə dəfələrlə MQ-nin artıq mövcud olmadığını bəyan ediblər. Zaxarova üstəlik, yeganə çıxış yolu kimi Bakı və İrəvanı qrupun rəsmi ləğvi üçün ATƏT-ə birgə müraciət etməyə çağırıb.

Azərbaycan buna çoxdan hazırıdır. Qalır erməni tərəfi. Əfsus ki, İrəvan yenə astagəllik edir. Çünki sözdə ölkəmizə qarşı ərazi iddiasının olmadığını bəyan eləsə də, əməldə bunu isbatlamaq istəmir. O sırada Ermənistan konstitusiyasını beynəlxalq hüquqa uyğunlaşdırmağa tələsmir...

Bir yandan da Kopırkinin yuxarıdakı açıqlaması. Bu, şübhəsiz, Kremlin Güney Qafqaza yönəlik imperiya maraqlarına sadiqliyini göstərməklə yanaşı, erməni revanşistlərin "çöprəyinin üstünə yağ" sürtmək cəhdidir. Eyni zamanda, Rusiyanın nə dərəcədə etibarsız dövlət olduğunun növbəti təzahürüdür.

Təsadüfi deyil ki, son bir həftə ərazində Rusiya səfiri Ermənistanın üç sabiq prezidenti ilə - torpaqlarımızın işğalında müstəsna rol oynamış faşist xislətli Robert Köçəryan, Serj Sərksiyan və Levon Ter-Petrosyanla İrəvanda bir araya gəlib. Həmçinin uzun fasilədən sonra Xocalı canisi Köçəryan "xortlayaraq" geniş mətbuat konfransı keçirib, Rusiyanın ünvanına təriflər yağdırıb, MQ-nin heç bir halda ləğv edilməməli odluğunu ərz edib...

Amma Moskvadakı neoimperialist düşüncəli çevrələr də, İrəvandakı revanşistlər də bir şeyi unudurlar ki, siyasətdə, diplomatiyada bir suya iki dəfə girmək mümkünsüz.

Ən əsası, Bakı MQ qismində köhnə təzyiq rıcağının ona qarşı işə salınmasına əsla izin verməz.

Əslində MQ həm də Ermənistana təzyiq və Paşinyan hökumətinin dayaqlarını sarsıtmaq üçün lazımdır. Odur ki, Nikol Paşinyan nə qədər gec deyil, yaxın keçmişin bu əcaib mirasını tam təsirsiz hala gətirmək üçün Bakı ilə birgə ATƏT-ə ortaq müraciəti tezləşdirməlidir...

❑ **Zahìd SƏFƏROĞLU**

# Ölkədə yeni hərbi nizamnamələr hazırlanır



**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmrinə əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam, Qarnizon və Qarovul Xidmətləri, habelə Daxili Xidmət nizamnamələrinin yeni layihələrinin hazırlanması məqsədilə yaradılan işçi qrupunun martın 7-də növbəti görüşü keçirilib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərliyi ilə keçirilən görüşdə Silahlı Qüvvələrin aidiyyəti qurumlarının məsul vəzifəli şəxsləri iştirak edib. Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrdə aparılan uğurlu islahatlar, qazanılan nailiyyətlər və tətbiq edilən yeniliklər nəzərə alınmaqla yeni hərbi nizamnamələrin hazırlanmasına dair geniş fikir mübadiləsi aparılıb. Hərbi nizamnamələrin hazırlanmasında müasir dövrün tələbləri, inkişaf etmiş ölkələrin bu sahədə təcrübəsi nəzərə alınaraq perspektiv planlar müzakirə olunub.**

# Azərbaycanda MAXE-lərin sayı artırılacaq

**Azərbaycanda hərbi xidmətə çağırışda növbəti islahatlar gözlənilir. Bunu modern.az-a açıqlamasında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bildirib. O qeyd edib ki, milli kadr potensialı ilə tam şəkildə təmin olunmuş ordunun yaradılması üçün səfərbərlik sistemində islahatlar davam etdiriləcək.**

"Bu gün də artıq Milli Məclisin plenar iclasında istefada və ehtiyatda olan hərbçilərin forması ilə bağlı müvafiq dəyişiklik qəbul edildi. Bununla bağlı İnzibati Xətalar Məcəlləsində dəyişiklik olacaq, hər xidmət keçmə haqqında əsasnamədə. Bu gün hərbi biletində müvafiq qeydiyyatı olmayan, eyni zamanda müəyyən icazəsi olmayan, istefaya gedəndə, təqaüdə çıxanda buna baxılacaq. Əsas məqamdan ondan ibarətdir ki, bu anım günlərində, peşə bayramlarında, Zəfər Günündə formadan istifadə etmək nəzərdə tutulur", - komitə sədri deyib. A.Nağıyev ödəniş qarşılığında hərbi xidmətdən azad edilmə ilə bağlı təkliflərə də münasibət bildirib: "Hələ bununla bağlı qanunvericilik təşəbbüsü ilə çıxış edən yoxdur". O əlavə edib ki, Azərbaycanda müqavilə ilə xidmət edən hərbçilərin (MAXE) sayının artırılması istisna deyil: "Ümumiyyətlə, döyüşkən ordu yaratmaq üçün mütləq şəkildə müqavilələli orduya keçmək lazımdır. Bundan sonra bütün kateqoriyalara uyğun ehtiyat qüvvələr yaratmaq lazımdır. Son zamanlar Ukraynada gedən müharibə göstərdi ki, əgər 80 minlik müqaviləli ordu varsa, heç olmasa 500-600 minlik də ehtiyat orada olmalıdır. Ölkənin təhlükəsizliyinə təhdid varsa, ilk növbə müqaviləli hərbi qulluqçular, daha sonra ehtiyat qüvvələr mütləq şəkildə səfərbər olunub çağırılırlar. Bu, Rusiya-Ukrayna müharibəsində praktiki şəkildə özünü göstərdi. Bütün bunların hamısının eyni anda birdən-birə formalaşması mümkün deyil. Çox məsələlər var ki, bunlara yenidən baxıla bilər".

# Bakı erməni fəalına sığınacaq verə bilərmi? - Bir xahişə reaksiya

## Siyasi motivlərə görə təqib olunan hər kəsə sığınacaq vermək olar, bir şərtlə ki...

**Erməni bloger İşxan Verdyan Azərbaycan Prezidenti İlham Əliyevə müraciət edərək, siyasi sığınacaq istəyib. Bu barədə o, Teleqram kanalında məlumat yayıb. “Hörmətli cənab Prezident, nəzərinizə çatdırım ki, Qarabağı Azərbaycan ərazisi olaraq açıq şəkildə tanıdığım üçün Ermənistanda mənə qarşı cinayət işi açılıb.**

İrəvan Azərbaycan və Ermənistanın suverenliyinin qarşılıqlı tanınması lehinə çıxış etdiyimə, həmçinin "artsax" kvazi-dövlət qurumu və onunla bağlı hər şey haqqında tənqidi bəyanatlarıma görə mənə ömürlük həbs cəzası vermək istəyir. Onu da nəzərinizə çatdırım ki, Ermənistana qayıtmağım istər-istəməz həbsimə gətirib çıxaracaq və barəmdə elan olunmuş beynəlxalq axtarış Ermənistanda həbsxanadan başqa istənilən yerdə mənə qapıları bağlayır. Hörmətli cənab Prezident, mövcud reallıqları nəzərə alaraq və qaçılmaz repressiyalarla bağlı səbəblərə görə vətəndaşlığım olduğu ölkəmə qayıtmağımın mümkünsüzlüyünü nəzərə alaraq, Azərbaycanda siyasi sığınacaq verməniz xahiş edirəm. Hörmətlə, İşxan Verdyan", - o qeyd edib.

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə “Yeni Müsavat”a şərhində bildirdi ki, qanunsuz təqib olunan hər bir şəxsə dövlətlər, o cümlədən Azərbaycan sığınacaq verə bilər. O qeyd etdi ki, vətəndaşa qarşı irəli sürülən ittiham heç bir hüquqi faktlara və qanuna söykənmirsə, siyasi motivlidirsə və ona qarşı qaldırılmış cinayət işinin motivi də siyasidirsə, nəzərə alsaq ki, başqa ölkələrin ərazilərinin işğalı ilə barışmayan şəxsə qarşı bu cür cinayət işi qaldırılıb, Azərbaycan bu şəxsə öz ölkəsində sığınacaq verə bilər: “Bu təkcə, Ermənistan vətəndaşlarına aid deyil, digər ölkələrə də aid ola bilər. Beynəlxalq hüquq normalarına zidd olan, işğala rəvac verən, işğalçılıq siyasəti yürüdən dövlətin hərəkətlərinə qarşı çıxan həmin ölkənin və digər ölkənin vətəndaşlarına istənilən ölkə sığınacaq verə bilər. Buna görə də İşxan Verdyanın Azərbaycana gəlməsi, burada yaşaması üçün dövlətimiz istənilən şəraiti yarada bilər”.

Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin (SHAM) rəhbəri, politoloq Xəyal Bəşirov isə vurğuladı ki, siyasi sığınacaq hüquqi prosedurdur. O, Azərbaycanın beynəlxalq konvensiyalara tərəfdar çıxdığına diqqət çəkdi: “Ümumdünya İnsan Hüquqları haqqında" Bəyannamənin 14-cü bəndinə görə, hər bir şəxs yaşadığı ölkədə siyasi təqibə məruz qalırsa, onun sığınacaq almaq hüququ var. Amma BMT-nin 1951-ci il “Qaçqınların statusu haqqında” Konvensiyanın, o cümlədən 1967-ci il “Qaçqınların statusuna dair” Protokoluna görə bu məsələdə milli qanunvericilik əsas götürülür. Azərbaycan Konstitusiyasının “Siyasi sığınacaq hüququ” haqqında maddəsinə görə şəxslər siyasi mövqelərinə görə təqibə məruz qalırlarsa, onların Azərbaycan Respublikasında siyasi sığınacaq qalmaq hüquqları var. Amma bir şərtlə ki, onların törətdiyi əməl Azərbaycanda cinayət hesab olunmamalıdır. Bu prizmadan yanaşdıqda İşxan Verdyan digər cinayət törətməyibsə, yəni Azərbaycan Respublikasında cinayət hesab olunan əmələ yol verməyibsə, onun siyasi sığınacaq qalmaq hüququ var. Amma əgər İşxan Verdyan Azərbaycanın ərazi bütövlüyü məsələsi, suverenliyimizi tanıdığına, “artsax”ı qəbul etmədiyinə görə təqib olunursa, bu əməllər Azərbaycanda cinayət hesab olunmur. Əksinə, onları qəbul etmək suverenliyə ziddir. Bu halda İşxan Verdyanın əməllərində cinayət halı yoxdur. Digər tərəfdən Azərbaycan Respublikasının Konstitusiyasında sığınacaq hüququ nəzərdə tutulsa da, proses “Qaçqınlar və məcburi köçkünlər haqqında” Qanunla tənzimlənir. Azərbaycan bütün dövlətlərin vətəndaşlarına bərabər şəkildə baxır. Əgər Ermənistan Respublikası vətəndaşı öz ölkəsində təqibə məruz qalırsa və o hüquqi dövlət olan Azərbaycana siyasi sığınacaq almaq xahişi ilə müraciət edirsə, bu halda ölkəmiz bu proseduru müvafiq konvensiyalara, o cümlədən Konstitusiyamıza uyğun şəkildə həll edəcək".



❑ **Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**

# Vardanyana daha sərt cəza istənilir

## Avropalı deputatların Azərbaycana müraciətinə reaksiya verildi - iki rəy



**Latviya Seyminin deputatlarının təxminən beşdə bir hissəsi Ruben Vardanyana hökm çıxarılması zamanı yerli aspektlərlə yanaşı, beynəlxalq aspektlərin də nəzərə alınması barədə bəyanatla çıxış edib. Bu barədə “Report” “CNN Prima News” xəbər kanalına istinadən xəbər verib. Deputatlar Vardanyanın cinayətkar fəaliyyətinin beynəlxalq miqyasına diqqət çəkərək, onu “Putinin sponsoru” və separatizmin tərəfdarı adlandırır, onun üçün sərt cəza tələb edirlər. Onlar Vardanyanla bağlı çıxarılacaq hökmün postsovet məkanında Kreml yönümlü separatçılar üçün dərs olacağına ümidvar olduqlarını bildiriblər.**

Deputatlar bəyanatlarında “Vardanyanın fəaliyyətinin müxtəlif vaxtlarda müxtəlif ölkələrin siyasətçiləri, vətəndaş cəmiyyəti təşkilatları və beynəlxalq media tərəfindən diqqət çəkdiyini və pislənildiyini” xatırladırlar. Vardanyanın məhkəməsinə reaksiya verən təkcə latviyalı deputatlar deyil. Bu ilin fevralında ukraynalılar və rumınlar da bu barədə danışıb. Avropalı Mühafizəkarlar və İslahatçılar fraksiyasının rumıniyalı deputatı Kristina Terhes deyib ki, Vardanyanın cinayətləri Cənubi Qafqazdan çox kənara çıxır. 2019-cu ildə bir qrup Avropa deputatı Putinin oliqarxına qarşı sanksiyalar tətbiq etməyə çağırıb. Üç il sonra ABŞ Konqresinin 46 üzvü eyni çağırışı etmişdi.

“Latviyalı deputatlar haqlıdırmı - Vardanyanla bağlı çıxarılacaq hökm postsovet məkanında Kremlyönlü separatçılar üçün nə dərəcədə ibrət dərsi olacaq?

“Əslində, Latviya Seyminin deputatlarının bəyanatı heç də təəccüblü deyil. O baxımdan ki, dünya artıq Azərbaycana beynəlxalq hüququn qoruyucusu, təminatçısı kimi yanaşır. Bu haqqı isə biz 44 günlük Vətən savaşı zamanı qazanmışıq”. Bunu “Yeni Müsavat”a Milli Məclisin deputatı Vüqar İskəndərov deyib.

Deputat bildirib ki, Azərbaycanın 44 günlük müharibədə möhtəşəm qələbə qazanaraq torpaqlarını işğaldan azad etməsi təkcə ərazi bütövlüyünün və tarixi ədalətin bərpası deyildi: “Belə ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə 27 il idi ki, icraolunmamış saxlanılmışdı. Azərbaycan isə bu tarixi qələbəsi ilə həm də BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalmış 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasına nail oldu. Məsələyə bir qədər də dərindən yanaşsaq, prosesin BMT-nin özü üçün də uğurlu olduğunu deyə bilərik. Yəni torpaqlarımızın işğaldan azad edilməsi BMT-nin korlanmış imicinin bərpası üçün yeni nümunə yaradılması kimi tarixə düşdü”.

V.İskəndərov deyib ki, bu fakt beynəlxalq hüquqa dair digər həll edilməmiş məsələlərin həllini tapmasında da Azərbaycanın öz sözünü deməsinin vacibliyini ortaya çıxarıb: “Yəni, diqqəti Latviya Seyminin deputatlarının Ruben Vardanyana hökm çıxarılması zamanı yerli aspektlərlə yanaşı, beynəlxalq aspektlərin də nəzərə alınmasını istəməsi üzərində cəmləşdirmək lazımdır. Bu istək, bu bəyanat niyə ortaya çıxıb? Deputatlar Vardanyanın cinayətkar fəaliyyətinin beynəlxalq miqyasına diqqət çəkir, həmçinin bu cinayətkarın fəaliyyətinin müxtəlif vaxtlarda müxtəlif ölkələrin siyasətçiləri, vətəndaş cəmiyyəti təşkilatları və beynəlxalq media tərəfindən diqqət çəkdiyini və pislənildiyini bəyan edirlər. Yəni ortaya çıxan reallıq budur ki, bu günə kimi beynəlxalq arenada Vardanyanın cinayətkar əməlləri, xüsusilə də separatçılığa dəstək verməsi və separatçı proseslərin mərkəzində dayanması ilə bağlı narahatlıq ifadə edilsə də, onun cəzalandırılması reallaşmayıb. Bu cəzasızlıq mühitinə də məhz Azərbaycan son qoyub. Bu gün Vardanyan Bakıda həbsdədir və ona kəsiləcək cəzanı gözləyir. Yəni nəzərə alsaq ki, Vardanyanın məhkəməsinə reaksiya verən təkcə latviyalı deputatlar deyil, bu ilin fevralında ukraynalılar və rumınlar da bu barədə danışıb, onun Avropalı Mühafizəkarlar və İslahatçılar cinayətlərinin Cənubi Qafqazdan çox kənara çıxdığını bəyan ediblər. Lakin bu da son deyil, 2019-cu ildə bir qrup Avropa deputatı Putinin oliqarxına qarşı sanksiyalar tətbiq etməyə çağırmış, 2022-ci ildə isə ABŞ Konqresinin 46 üzvü eyni çağırışı etmişdi. Bununla belə Vardanyan necə deyərlər əlini-qolunu sallayaraq gəzirdi. Onun həbs edilməsi və məhkəmə önünə çıxarılması ilə Azərbaycan bu məsələdə də beynəlxalq hüququn, belə deyək, imdadına çatmış olur”.

Politoloq Elxan Şahinoğlu isə Vardanyan və digərlərinin istənilən halda haqq etdikləri cəzaları alacaqlarını söyləyib: “Cinayətkar Vardanyanı oğlu və bir neçə dostundan başqa beynəlxalq aləmdə heç kəs müdafiə etmir. Müdafiə edə də bilməzlər. Çünki separatçılığa dəstək verib, gəlib separatçılarla əlbir olub, Azərbaycana qarşı təxribatların hazırlanmasında iştirak edib. Rusiya də onu müdafiə etmir. Çünki Rusiya vətəndaşlığından da çıxmışdı. Əgər Rusiya vətəndaşlığı qalsaydı, bəlkə də Rusiyada hansısa mərkəzlər onu dəstəkləyə bilərdi. Qərbin də onunla heç bir əlaqəsi olmaz. Çünki Rusiya Ukraynaya qarşı müharibəyə başlayandan sonra bu işğalçı müharibəyə dəstək verənlərdən biri də Vardanyan idi. Ona görə də Qərbin "qara siyahısı"na düşmüşdü. Bu baxımdan da, Qərbdə müdafiə olunmayacaq. Əgər müdafiə etsələr, Qərb ölkələri özləri özlərinin əksinə gedərlər. Hətta müdafiə olunsaydı belə bu o demək deyildi ki, Azərbaycan onu azad edəcəkdi, yaxud azad etməlidir. Latviya, rumın deputatlarının, eləcə də, digər ölkələrin ekspertlərinin söylədikləri var. Ona görə də, onun oğlu canfəşanlıq göstərsə də, xarici medialarda atası barədə məqalələr yayımlamağa çalışsa da, bu reallığı dəyişməyəcək".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 44 (8654) 8 mart 2025



# Azərbaycanın 1 nömrəli düşməni - Eyni sorğu bizdə keçirilsəydi...

## Türkiyədə respondentlərin yarıdan çoxu ABŞ-ı ölkə üçün ən böyük təhlükə sayır; bəs, bizdə?

**Türkiyədə respondentlərin 52,5%-i ABŞ-ı ölkə üçün ən böyük təhlükə sayır. Ardınca İsrail (19,2%), Suriya (3,0%), Rusiya (2,7%), İran (2,3%), Yunanıstan (1,2%), Almaniya (1,2%), Çin (0,7%) və Fransa (0,02%) gəlir. Bu barədə MetroPOLL-un 2025-ci ilin yanvarında keçirdiyi sorğunun nəticələri ilə bağlı məlumatda deyilir.**

Bundan əlavə, respondentlərin 3,8%-i düşmən qismində başqa ölkələrin adını çəkib. 1,0%-i Türkiyənin təhlükə altında olmadığına inandığını söyləyib, 12,1%-i isə cavab verməkdə çətinlik çəkib. Bəs görəsən eyni sorğu Azərbaycanda keçirilsə, nəticə necə olar? Yəqin ki, 1-ci sırada ABŞ yer almaz. Bəs hansı ölkə alar - Ermənistan, İran, yoxsa Rusiya? Qardaş ölkədə ABŞ niyə ən təhlükəli dövlət sayılır?

"Yeni Müsavat"a danışan siyasi təhlilçi Sona Əliyeva STM-in bu cür sorğuları Azərbaycanda keçirməsinin vacibliyini önə çəkdi: "Türkiyədə bu cür sorğular mütəmadi keçirilir və ölkənin metropolundan ən ucqar nöqtələrindəki vətəndaşlarına qədər hər kəsin fikri öyrənilir. Bizdə bu cür sorğular, demək olar ki, yox dərəcəsindədir. Əslində bizdə də bu kimi sorğuları Sosial Tədqiqatlar Mərkəzi ilin dörd fəslində keçirməlidir. Bəli, Türkiyə üçün ən təhlükəli dövlət ABŞ sayıla bilər. Çünki Ankaranın müttəfiqi sayılan Vaşinqton açıq şəkildə PKK terrorçularının hamisi kimi çıxış edib. İsraillə düşmənçilik isə sırf Fələstin məsələsinə görədir. Burada həm də Osmanlı varisliyi məsələsi var. Çünki yüz il öncəyə qədər İsrail və Fələstinin yerləşdiyi ərazilər Osmanlının nəzarətində idi. İlk üçlüyü Suriyanın tamamlaması isə şübhəsiz ki, Türkiyədəki suriyalı qaçqınlarla bağlıdır. 3-4 milyonluq qaçqın ordusu son 10 ildə Türkiyə iqtisadiyyatına böyük təhlükələr yaradıb. Azərbaycanda isə vəziyyət fərqlidir. Birinci düşmənimiz hələ də Ermənistandır. Çünki İrəvanla Bakı arasında hələ də sülh sazişi imzalanmayıb. Yeni revanşist qüvvələr hələ də Ermənistanda qalmaqdadır və onlar Azərbaycan üçün hələ də xüsusi təhlükə olaraq sayılır. Şübhəsiz ki, ilk üçlüyü müvafiq olaraq Rusiya və İran tamamlayacaq. Üstəlik, ölkəmizdə Rusiya və İran sevdalıları da kifayət qədərdir. Üstəlik, Fransa, Yunanıstan və Hindistan kimi kölgə düşmənlərimiz də mövcuddur. İsrail və Pakistan isə nüvə dövlətləri olsa da bizim üçün təhlükə mənbəyi yox, müttəfiq ölkələrdir. Fikrimcə, ABŞ və İsrail hələ uzun illər Türkiyə cəmiyyətində düşmən ünsür kimi xatırlanacaq. Bizdə isə bu mövqedə Rusiya və İran qərarlaşıb".

AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev də fərqli düşünmür: "ABŞ-ın təhlükəli dövlət olub-olmaması ilə bağlı dünya dövlətlərində insanların müxtəlif yanaşmaları həmişə mövcud olub. Bu yanaşmalar isə ABŞ-ın həmin dövlətlərə təsir imkanlarından, münasibətlərin mənfi ya müsbət olmasından asılı olub. Azərbaycanda belə bir sorğu keçirilərdisə, ABŞ-ı təhlükəli dövlət kimi göstərənlərin sayı çox az olardı. Respondentlər, sözsüz ki, real təhlükə gözlədikləri dövlətlərin adını daha çox çəkərdilər. Azərbaycan əhalisi isə belə bir təhlükəni daha çox Rusiya və İrandan gözlədiklərini deyə bilərlər. Ermənistanı da təhlükə kimi göstərənlər olacaq. Amma 44 günlük müharibənin qalibi olaraq Ermənistanın hər hansı ciddi təhlükə törədə biləcəyini ehtimal edənlər az olar. Çünki Ermənistan indiyədək kənar dövlətlərə arxalanaraq onlardan yardım almaqla təhdidlər nümayiş etdirib. Məhz o səbəbdən ilk növbədə həmin kənar dövlətlər təhlükə mənbəyi kimi dəyərləndirilir. ABŞ-ın indiyədək Azərbaycanın milli təhlükəsizliyinə, ərazi bütövlüyünə hər hansı ciddi təhdid yaratmadığını nəzərə alsaq, anoloji sorğu keçiriləcəyi halda onun daha az faiz toplayacağını düşünürəm. Bu da son 33 ildə ölkəmizin başına gələn problemlərdə, faciələrdə ABŞ-ın rolunun görünməməsi ilə əlaqədardır. Dediyim fikirlər bu günə aiddir. Gələcəkdə baş verə biləcək hadisələrdən dolayı fərqli fikirlərin və münasibətlərin yaranacağı da istisna deyil".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



Sergey Kopırkin

# Rus səfirdən anti-Türkiyə gedişi - Moskva köhnə ampluasında

## Ermənistana təhlükəsizlik zəmanəti vəd verilir; görəsən, rus hərbçilər bu ölkəni hansı mifik işğalçıdan qoruyur?

**"Ermənistanın təhlükəsizliyini Qərb qüvvələrinin vədləri yox, Rusiyanın 102-ci hərbi bazası və sərhədçiləri təmin edir". Bu barədə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin yerli "24News" portalına müsahibəsində bildirib.**

"Mənim bildiyimə görə, heç kim Ermənistana Rusiya-Ermənistan münasibətlərində olduğu kimi təhlükəsizlik zəmanəti verməyib. Hər halda mən heç bir sənəd və ya bəyanat görməmişəm. Təhlükəsizlik və hərbi-siyasi alyans sahəsində əməkdaşlığımızın əsas komponentləri toxunulmaz olaraq qalır. Rusiya bazası burada qalır, sərhədçilərimizin mövcudluğu prinsipial olaraq dəyişməyib və bu, Ermənistan rəhbərliyi tərəfindən kifayət qədər müsbət qiymətləndirilir", - diplomat əlavə edib.

Söhbət hansı təhlükəsizlik zəmanətindən gedir? Rusiya hərbi qüvvələri Ermənistanı hansı ölkədən, hansı mifik işğalçıdan qoruyur, əgər Azərbaycan və Türkiyənin heç vaxt qonşu ölkəyə hücum planı olmayıbsa, yoxdursa? Guya Rusiya hərbi bazaları Ermənistandan çıxarılsa nə dəyişəcək ki? Ermənistanın təhlükəsizliyi təmin olunmayacaq?

Absurd da ondadır ki, ermənilər özləri özlərinə türkdən "xoxan" düzəldərək bu miflə yaşamağı xoşlayırlar. Təbi ki, imperialist Rusiya da bundan məharətlə istifadə edir. Bədbəxt erməni isə anlamır ki, onun təhlükəsizliyinə ən güclü və ən etibarlı zəmanəti məhz qonşu Azərbaycan və Türkiyə verə bilər. Yolu bəlli.

"Alyans" Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov "Yeni Müsavat"a bildirdi ki, Rusiya səfiri Trampın verdiyi bəyanatlardan, atdığı addımlardan sonra Ermənistanda yaranmış ciddi tərəddüdlərdən faydalanmağa çalışır. "Bu bəyanat əslində Ermənistana bir daha düşünmək zərurətini çatdırır. Demək istəyir ki, sən Qərbə üz tutmusan, Qərbin də davranışı göz qabağındadır. Nikol Paşinyan da çox ciddi şəkildə bu barədə düşünür. Qarşıda "gözü çıxan qardaş" var. ABŞ "mən sənə qrant verirəm, havayı yardım göstərirəm" deyib 100 milyard yardım göstərib, indi Tramp qarşılığında 500 milyard istəyir. Avropanın yardımın da böyük hissəsi borc şəklində verilib. Bu şəraitdə üstəlik ABŞ-ın öz siyasətini kəskin şəkildə dəyişdiyi məqamda Ermənistan təbii ki, düşünmək məcburiyyətindədir. Səfir Kopırkin də bu məqamdan yararlanmaq istəyir. Deyir ki, siz Fransaya, ABŞ-a, İrana güvənirsiz və hesab edirsiniz ki bu dövlətlər sizin təhlükəsizliyinizə təminat verir, ancaq onların heç biri ilə belə bir müqaviləniz yoxdur, həlledici məqamda bu dövlətlərin hansı addım atacağı məlum deyil, amma Rusiyanın burada hərbi bazası var və sizin təhlükəsizliyinizin qarantıdır. Yəni bu qədər açıq mesaj verilir və bununla çatdırılır ki, Ermənistan əgər xarici siyasət xəttinə yenidən baxsa, Rusiyanı qane eləyən siyasət yeritsə Rusiya onun təhlükəsizliyinə təminat verə bilər. Bu, təkcə səfirin deyil, bütövlükdə Rusiya hakimiyyətinin mövqeyi kimi dəyərləndirilməlidir. Təbiidir ki, Ermənistan hakimiyyəti bu barədə xüsusilə son günlər acı-acı düşünür. Qərbə o qədər güvənməyin və anti-Rusiya mövqeyi tutmağın nə qədər təhlükəli olduğunu bir daha anlayıb. Rusiya isə bundan istifadə eləməyə çalışır. Ermənistan isə hesab edir ki, ən böyük təhlükə Azərbaycandan gələ bilər, Azərbaycan və Türkiyə birlikdə Zəngəzur dəhlizini açmaq istəyə bilər. Bu düşüncənin formalaşmasında İran da öz "xidməti"ni göstərib. Rusiya səfiri də ermənilərə dolayısı ilə məhz onları qorxduqları bu dövlətlərdən qoruya biləcəyi mesajını ötürür".

Ekspert qeyd etdi ki, Rusiyanın hərbi bazasının Ermənistandan çıxarılması mümkünsüzdür: "Çünki müqaviləyə görə 2044-cü ilə qədər hərbi baza oradadır. Vaxtından əvvəl çıxarılması isə mütləq Rusiyanın razılığı ilə olmalıdır. Sərhədçilər isə ümumiyyətlə müddətsiz şəkildə orada yerləşdiriliblər, Rusiyanın razılığı olmadan onları oradan çıxarmaq qeyri-mümkündür. Rusiya Trampın dövründə buna razılıq verməyəcək. Gələcəkdə isə həm Rusiya sərhədçilərini, həm də hərbi bazanın çıxarılması məsələsini qaldırmaq mümkün ola bilər. Ancaq indiki şəraitdə Ermənistan daha ehtiyatlı davranmağa başlayacaq və Rusiyaya qarşı mövqe tutmaqdan çəkinəcək".

Hərbi ekspert Rövşən Məhərrəmov isə bildirdi ki, Ermənistanın sərhədlərinin böyük hissəsində Rusiya federal sərhəd xidmətinin hərbçiləri xidmət aparırdılar. Bu, fakt əslində Ermənistanın müstəqilli dövlət olmadığının göstəricisidir. Ermənistan formal müstəqil dövlət adlandırılsa, daha düzgün olar: "Bir ölkənin ki, sərhədlərini özü yox, başqa bir dövlətin hərbi qüvvələri qoruya onu müstəqil dövlət saymaq olmaz. Ermənistanda Rusiyanın 102-ci hərbi bazası yerləşir. Bir ara rəsmi İrəvan Qərbin, xüsusən də Avropa İttifaqı və ABŞ-ın dəstəyinə arxayın olub Rusiya hərbi bazanın çıxarılması fikrinə düşmüşdü. Xüsusən də Avropa İttifaqının kəşfiyyatçılardan ibarət müşahidə missiyasının Ermənistana gəlişi və missiyanın say tərkibinin artırılmasından sonra Paşinyan hökumətinin rəsmiləri ürəklənmişdilər və Rusiya hərbi bazasının ölkədən çıxarıla biləcəyi söhbətini gündəmə gətirmək cəhdləri müşahidə edilirdi. Rusiya bu fikrə düşməsinə görə Ermənistana üzdə o qədər də sərt reaksiya vermirdi. Ola bilsin ki, qapalı danışıqlarda İrəvan sıxışdırılırdı, ancaq hər halda üzdə bu hiss olunmurdu".

Hərbi ekspert hesab edir ki, Rusiya ondan hər saat gözlənilməyən səbr nümayiş etdirirdi: "İndi belə görünür ki, Donald Trampın ABŞ-da hakimiyyətə gəlişindən sonra Ukrayna müharibəsi məsələsində, Rusiyaya münasibətdə yürütdüyü siyasət Moskvada "Ermənistanla bağlı hərəkətə keçməyin vaxtı çatdıb" fikrini yaradıb. Rusiya arxayınlaşıb və səfir Kopırkinin dili ilə Ermənistana "Qərbdən, ABŞ-dan təhlükəsizliyinizə təminat gözləyirsinizsə yanılırsınız, sizi bizim əlimizdən onlar xilas edə bilməz, təhlükəsizliyinizin təminatını istəyirsinizsə Qərbə doğru, yox Rusiyaya doğru yönəlin" mesajını çatdırır. Ermənistan cəmiyyətinə, hakimiyyətinə "əks halda sonra gec ola bilər" kimi də oxunmalıdır bu mesaj. Ermənistan Rusiyadan gələn xəbərdarlığı nəzərə almasa təhlükəsizliyinə əsas təhdid və təhlükə onda yaranacaq. Özü də Rusiyadan. Rusiya lazım biləndə pəncəsini Ermənistanın üzərinə qoyub onu əzməklə Qərb yolundan döndərəcək. Bunun üçünsə Ukraynaya qoşun yeritdiyi kimi qoşun yeridib müharibə etməsinə ehtiyac olmayacaq. Çünki Rusiyanın qoşunları onsuz da Ermənistanın içindədir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 44 (8654) 8 mart 2025

# Ombudsmanın illik məruzəsi parlamentdə qəbul olundu

## Səbinə Əliyevanın təqdim etdiyi sənəddə hansı nöqsanlardan bəhs edildi... - detallar

**Martın 7-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirilən iclasda ilk olaraq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2024-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi müzakirəyə çıxarıldı.**

Məruzəni İnsan hüquqları üzrə müvəkkil Səbinə Əliyeva təqdim edərək bildirdi ki, 2024-cü il ölkəmiz üçün bir sıra mühüm ictimai-siyasi hadisələr və qlobal əhəmiyyətli tədbirlərlə yaddaqalan olub: “İlk dəfə olaraq suveren respublikamızın bütün ərazisində keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri və Milli Məclisə növbədənkənar seçkilər əlamətdar hadisəyə çevrilib. Zəfər seçkisi kimi tarixə düşən və vətəndaşların xüsusi seçici fəallığı ilə yadda qalan növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri xalqımızın demokratiya və milli dövlətçilik ənənələrinə sədaqətini, öz liderinə sarsılmaz etimad və inamını, habelə son iyirmi ildə görülən işlərə, qazanılan uğurlara verilən yüksək dəyəri bir daha nümayiş etdirdi”. Məruzədə qeyd olunub ki, 2024-cü ildə Ombudsmanın ünvanına 29.371 müraciət daxil olub. Bu müraciətlərə “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Konstitusiya Qanunu ilə müəyyən olunmuş qaydada və müddətlərdə baxılıb. Ərizəçilərə həm qəbulda, həm də yazılı müraciətləri əsasında hüquqi məsləhətlər, habelə insan hüquq və azadlıqlarının müdafiəsinin forma və üsulları, o cümlədən bu və ya digər məsələlərlə əlaqədar aidiyyəti dövlət qurumlarına müraciət etmələri barədə tövsiyələr verilib. İnsanların üzləşdikləri problem və çətinliklərin həlli məqsədilə Ombudsman tərəfindən aidiyyəti dövlət qurumlarına, idarə, müəssisə və təşkilatlarına müraciətlər edilmiş, bir çox hallarda nöqsan və çətinliklərin aradan qaldırılması və pozulmuş hüquqların bərpası üzrə zəruri tədbirlər görülmüş, təklif və tövsiyələr verilib".

S.Əliyeva bildirdi ki, əvvəlki illərdə olduğu kimi, sahibkarlıq subyektlərində işçilərin əmək hüquqlarının pozulması faktları üzrə araşdırmaların aparılmasında ciddi çətinliklər yaranır: “Belə ki, ”Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri əsas gətirilməklə bu qəbildən olan şikayətlərin araşdırılması demək olar ki, mümkün olmayıb. Odur ki, müvafiq qanuna əsasən, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların siyahısına sahibkarlıq subyektləri tərəfindən insan hüquq və azadlıqlarının, o cümlədən əmək hüquqlarının pozulması hallarında şikayətlərin araşdırılmasını birbaşa nəzərdə tutan dəyişikliklərin mümkün qısa zamanda edilməsi zəruridir". S.Əliyeva bildirdi ki, işəgötürənlər tərəfindən işaxtaran şəxslərin əmək müqaviləsi bağlanılmadan işə cəlb edilməsi probleminə də diqqət artırılmalıdır: “Aztəminatlı ailələrin maddi yardım asılılığından azad edilməsində əhəmiyyətli rolu olan özünüməşğulluq proqramına əlçatanlığın asanlaşdırılması məqsədilə qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac vardır. Xüsusilə də, özünüməşğulluğa cəlb edilən şəxsin aktivlərlə təmin olunması ilə bağlı müddətin müəyyən edilməsi, habelə özünüməşğulluğa cəlb olunmuş şəxsin aktivlərlə təmin olunmasına qədər onun məşğulluğun digər formasından yararlanması və ya ünvanlı dövlət sosial yardımı barədə müraciət etməsi üçün məhdudiyyətin aradan qaldırılması məqsədəmüvafiqdir. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi barədə müraciətlərlə əlaqədar ailənin maddi-məişət şəraitinin müayinəsinin aparılması üçün qanunvericiliklə son müddətin və ya müddət aralığının müəyyən olunması aztəminatlı ailələrin sosial müdafiəsinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynaya bilər”.



Məruzədə qeyd olunub ki, sağlamlığın qorunması hüququnun səmərəli təmin edilməsi istiqamətində əhəmiyyətli islahatların aparılmasına baxmayaraq, hələ də bu sahədə müəyyən çətinliklər qalmaqdadır: “İcbari tibbi sığortanın təminat verdiyi tibbi xidmətlər zərfinin genişləndirilməsi, həmin zərfə daxil olan xidmətlər çərçivəsində ambulator müalicə alan şəxslərə yazılan dərman vasitələrinin sığorta hesabına qarşılanması məqsədilə zəruri tədbirlərin görülməsi, eyni zamanda ölkəyə idxal edilən dərman vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməsi sağlamlığın qorunması hüququnun effektiv təmin olunmasında olduqca vacibdir”. Ombudsman bildirdi ki, bundan başqa, onkoloji xəstəliklərin müalicəsində istifadə olunan dərman preparatlarının spektrinin genişləndirilməsi, habelə “Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı”nın müasir tələblərə uyğun olaraq yenidən işlənilməsi də məqsədəmüvafiqdir: “Səhiyyə müəssisələri tərəfindən əlilliyin qiymətləndirilməsi məqsədilə müvafiq göndərişlərin düzgün rəsmiləşdirilməsi və bununla da süründürməçilik hallarının aradan qaldırılması üçün tibb işçilərinin peşəkarlığının artırılması və onların lazımi qaydada təlimatlandırılması, mürəkkəb və detallı sənədləşmə prosesinin sadələşdirilməsi, habelə tibb müəssisələri ilə tibbi sosial ekspert komissiyalarının fəaliyyətinin daha effektiv əlaqələndirilməsi zəruridir. İnternet səhifələrində və sosial şəbəkələrdə yayımlanan çoxsaylı tibbi əsaslandırılmamış məlumatların, internet platformalar üzərindən satılan və keyfiyyəti şübhə doğuran dərman preparatlarının insan sağlamlığına göstərə biləcəyi neqativ təsirləri nəzərə alaraq, bu sahəyə nəzarətin gücləndirilməsi, davamlı monitorinqlərin aparılması və problemlərin qanunvericilik səviyyəsində həlli də vacib məsələlərdəndir”.

Müzakirələr zamanı çıxış edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bir sıra paralellər apardı. Bildirdi ki, ikinci prezidentliyindən 46 gün keçən Donald Trampın Amerika inqilabını maraq və rəğbətlə izləyənlər arasında Azərbaycan da var: “Prezident İlham Əliyevin 20 il əvvəl uzaqgörənliklə dedikləri indi Ağ Ev administrasiyası tərəfindən təkrarlanır. Münxen Konfransında vitse-prezident Ceyms Vens bəyan etdi ki, Avropanın təhlükəsizliyinə ən böyük zərbəni qərbli liderlər vurur. Dünyada müharibələrin gerçək səbəbi demokratiyanın və üsul-idarələrin ixracı adı ilə ölkələrin daxili işlərinə silahlı, yaxud rəngli müdaxilələrdir. Konfransın sədri Kristof Hoysenin tribunada tökdüyü göz yaşları İraqda, Suriyada kütləvi məhv edilən milyonlarla insanın faciəsinə bənzəmir. Əvəzində 3 ildir davam edən Ukrayna müharibəsində 16 milyon əhalini köçkünə çevirəndən, 30 faiz torpağı və 100 minlərlə insanı itirəndən sonra qəhrəman ukraynalıların qarşısına təbii sərvətlərini təslim etmək şərti qoyulur. İllərdir dövlətimizə şər atanlar, 1994-cü ilin ”Əsrin müqaviləsi"ni, təhlükəsizlik zəmanəti olmadan atəşkəs razılaşmasını hazırkı Ukrayna ilə müqayisə edin, görün, Ulu öndər Heydər Əliyev məğlub Cəbhə hakimiyyətini kapitulyasiyadan necə xilas edib, Qələbəmizin əsasını qoymuşdu. Müqaviləni belə bağlayarlar, cənablar! Ulu öndərdən öyrənin-çünki O, təkcə azərbaycanlılara deyil, bütün xalqlara qurtuluşun yolunu göstərib". Z.Oruc dedi ki, işğala qarşı birləşən 51 dövlətin Ukraynaya verdiyi yardımın üçdə ikisini korrupsiya kimi mənimsəyiblər: “Qlobal müharibə partiyası bir xalqın qanı üzərində 100 milyardları silib. Savaşın sponsorları o vaxt azərbaycanlılara sığınacaq və yardım etmək əvəzinə 907-ci cəza qanunu tətbiq etmişdilər. Heç bir millətə sərvətini-vətənin mülkiyyət hüququnu təslim edib təhlükəsizlik qarantiyası almağı arzulamırıq. Bunun harası müstəqillik oldu? Bunun harası ləyaqət inqilabı oldu? Bunun harası avrointeqrasiya oldu?”

Yekunda komitə sədri “Biz ABŞ-dan Qarabağa yardım istəmirik, çünki millətimiz halal Qələbəsi ilə Şuşada Ağ Evi özü ucaldır!”-söylədi.

Komitə sədri Fazil Mustafa həssas bir mövzuya toxundu: “Ombudsmanın məruzəsində Ucar rayonundan misal gətirilib ki, birinci sinifdə şagird sayı 10-dan az olduğuna görə, ikinci siniflə birləşdirilib. Yarı bir, yarı isə ikinci sinif proqramı ilə dərs keçilməsinə etirazını ortaya qoyub. Bu, tamamilə məntiqlidir. Sabah ikinci sinif olmasa, birinci sinifi üçüncü sinifle birləşdirmək lazımdır? Nazirlər Kabinetinin bu istiqamətdə qərarı var. Bu qərara baxılmalıdır. Birinci sinifdə bir şagird olsa belə, ona ayrıca müəllim dərs deməlidir. Bu proqramları dəyişmək olmaz. Ölkə həyatında təhsildən önəmli vacib məsələ olmamalıdır”.

Deputat Əli Məsimli öncə dedi ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili - Obudsmanın 2024-cü ildəki fəaliyyətinə dair məruzəsi yaxşı hazırlanıb, kifayət qədər əhatəli, obyektiv və sistemlidir: “İnsan hüquqlarına dair kifayət qədər faktoloji materiala və məlumatlara əsaslanır. Ombudsmanın hazırkı reallıqlar şəraitində mümkün olan işlərin xeyli hissəsini görməsi belə bir fikir söyləməyə əsas verir ki, Ombudsmanın məruzəsini müsbət qiymətləndirmək olar. İnsan hüquqlarının qorunması sahəsində gördüyü işlərə görə Səbinə xanıma (Əliyeva - red.) təşəkkür edirəm”. Əli Məsimli məruzədə həm özünün diqqətini xüsusi çəkən, həm də insanları narahat edən bir neçə məsələyə toxunmaq istədiyini bildirib: “Birincisi, əvvəlki məruzələrdə olduğu kimi, bu dəfə də məruzədə şəhid ailələrinin və müharibə veteranlarının, hərbi qulluqçuların hüquqlarının qorunması məsələlərinə geniş yer verilməsini çox yüksək qiymətləndiririk. Şəhid ailələrinin mənzil təminatı istiqamətində xeyli iş görülüb.

Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə ümumən 15 minə yaxın, 44 günlük Vətən müharibəsindən sonra isə 6 min mənzil və fərdi ev təqdim edilib. Bu sahədə növbə gözləyənlərin də məmnunluğuna nail olmaqdan ötrü bu il və növbəti ilin sonuna kimi müharibə əlilləri və şəhid ailələrinin mənzillə təmnatı məsələsinin həllinin tamamlanmasını vacib hesab edirik. Bununla yanaşı, deputatlara olan müraciətlərə əsasən bildirmək istərdik ki, “Hərbi qulluqçuların statusu haqqında” qanuna, “Hərbi xidmətkeçmə haqqında” Əsasnaməyə görə, 20 il xidmətdən sonra Sərhəd Xidməti və daxili qoşunlarda hərbi xidmət keçmiş şəxslərin mənzillə təmin olunma hüququ olsa da, onlara mənzil verilmir, yalnız Azərbaycan ordusunda hərbi xidmət keçən hərbçilərə verilir. Müvafiq qanunvericiliyə uyğun olaraq, onlar silahlı qüvvələrin tərkib hissəsi hesab olunduğundan, həmin kateqoriyaya aid hərbiçilərimizin də mənzillə təmin olunma hüququnun reallaşması istiqamətində addımların atılmasını vacib hesab edirik. Bu gün bir sıra hallarda təqaüd yaşına çatmağa az qalmış bir dövrdə vətəndaşların vəzifələrindən azad olunmaları faktları ilə qarşılaşırıq. Təbiidir ki, bu da həmin şəxslərin maddi vəziyyətlərinin və ailələrinin sosial durumuna olduqca mənfi təsir göstərməklə yanaşı, onlara ciddi mənəvi zərbə vurur. Hesab edirik ki, məsələyə münasibətdə ölçülüb-biçilmiş işlək mexanizmlərin düşünülməsinə və tətbiqinə ehtiyac var".

Müzakirələrdən sonra Ombudsmanın məruzəsi qəbul edildi.

Gündəlikdəki məsələlərin müzakirəsindən sonra spiker Sahibə Qafarova çıxış edərək dedi ki, sabah (bu gün-red.) Qadınlar Gününü qeyd edəcəyik: “Bu gün burada qadınlar üçün bir çox təbriklər səsləndi, hörmətli həmkarlarımız bizləri təbrik etdilər. Mən Milli Məclisin adından bizə - qadınlara səslənən təbriklərə görə minnətdarlığımı bildirirəm. Hər bir cəmiyyətin inkişaf səviyyəsi və onun potensial imkanları bir çox cəhətdən qadınların vəziyyəti ilə müəyyən olunur. Bunu biz hamımız çox yaxşı bilirik. Çünki qadınlar ailə və təhsildən başlayaraq siyasətə, elmə, incəsənətə qədər həyatın bütün sahələrində mühüm rol oynayırlar.

Mən bayram münasibəti ilə Milli Məclisin qadın deputatlarını və əməkdaşlarını, burada bizim fəaliyyətimizi işıqlandıran qadın media mənsublarını - onlar orada bizimlə bərabər işləyirlər - bütün Azərbaycan qadınlarını ürəkdən təbrik edirəm. Onlara möhkəm can sağlığı, firavanlıq və ailə səadəti arzulayıram".

Sahibə Qafarova daha sonra bildirdi: “Hörmətli həmkarlar, bildiyiniz kimi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva qadın hüquqlarının müdafiəsi, dövlət və cəmiyyət həyatında qadınların rolunun gücləndirilməsi ilə bağlı fəaliyyətin uğurlarına böyük töhfələr verir. Və icazə verin, 8 Mart - Qadınlar Günü münasibəti ilə çox hörmətli Mehriban xanıma Milli Məclis adından təbrik məktubu ünvanlayaq və ona dəyərli fəaliyyətində yeni-yeni uğurlar arzulayaq”.

Deputatlar təbrikə və təşəbbüsə alqışla qarşılıq verdilər.

❑ **Elşad PAŞASOY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 44 (8654) 8 mart 2025



# Meyvə-tərəvəz sərgisi

Zamin HACI
zaminhaci@gmail.com

"Sinyor Pomidor, qəzəblənməyin! Deyirlər hirslənəndə vitaminlər azalır!"
*(Canni Rodari, "Çipollinonun macəraları")*

**Hökumətimiz hər zaman xalqın yanındadır, daim onun rifah halını yüksəltmək üzərində çalışır, bunun üçün müxtəlif dövlət proqramları icra edilir. Dünən belə proqramlardan birinin açılışı olmuşdur. Paytaxtımızın ən böyük sərgi salonlarından birində italiyalı heykəltəraş Cüzeppe Kartanın əsərlərinin sərgisi açılmışdır. Sərgi "Təbiətin nemətləri" adlanır və adını doğruldur: burada meyvə-tərəvəz heykəlləri xalqımıza, zəhmətkeşlərimizə nümayiş etdirilir.**

Doğrusu, sərgidən fotoları, videoları izləyənə qədər mən həmin meyvə-tərəvəzin nəsə sürreal, absurd-filan formada təsvirini görəcəyimizi zənn edirdim. Axı incəsənətdə, rəssamlıqda belə cərəyanlar var, görürsən hinduşka başının şəklini çəkirlər, altından da "Təhsil fədaisi" yazırlar. Ancaq xalqımıza nümayiş olunan sərgi sırf adına uyğundur. Burada badımcan, moruq, pomidor, nar, kartof-soğan, alma, bibər, acı istiotun heykəllərini görmək mümkündür.

Bir növ, Novruz və 8 Mart öncəsi xalq üçün sənət-tərəvəz yarmarkası düzəldilibdir. Mən bu diqqət və qayğıya görə kövrəldim. Həmişə kartof-soğanın gerçək yarmarkası düzəldilməz ki. Hərdən simvolik, rəmzi, heykəl kənd təsərrüfatı yarmarkaları da lazımdır. Bu dəqiqə pomidorun bəzi növlərinin kilosu bazarda 15 manata çatıb. Kartof 1 manat 50 qəpikdir. Badımcan, xiyar, soğan və sairə də onun kimi - əl və cib yandırır. Belə olan şəraitdə xalq heç olmazsa bu meyvə-tərəvəzin heykəlinə baxıb mənəvi aclığını öldürməlidir.

Özü də sevindirici haldır ki, hər bir heykəlin altından izahedici yazılar yapışdırılıb, məsələn, badımcan heykəlinin altından "Badımcan" yazılmışdı, mən bunu fotolardan aydın gördüm. Təbii, yazı olmasa zənn edərdik bu, badımcan deyil, məsələn, xiyardır. Hətta avokado da ola bilər. Axı gör neçə vaxtdır millət badımcan üzünə həsrətdir, ona badımcanın heykəlini göstərənlərə "can" deməyə hazırdır!

O cümlədən, alma heykəlinin altından "Yaşıl alma", acı bibərin altından da "İstiot" kimi məlumatlandırıcı lövhələr vurulmuşdu. Yalnız "Bunlar yeməli deyil" lövhəsini heç yerdə görmədim, bəlkə camaat heykəlləri dişləyəcəkdir? Hesab edirəm bunun üzərində düşünmək lazımdır. Əlaqədar orqanlardan xahiş edirik, əncam çəksinlər. (İndi fikir verdim ki, bu "əncam" sözündə qəribə hərarət var, sanki iqtidar-xalq münasibətlərinin istiliyini canında gizlədibdir).

Yeri gəlmişkən, Bakıda vaxtaşırı bu tip heykəl sərgiləri keçirilir, yadınıza gəlirsə qışda lüt arvad heykəli qoyulmuşdu, lakin xalq narazılıq edəndən sonra onu hansısa icra başçısının villasına apardılar. İndi isə müqəddəs Ramazan ayını da nəzərə alaraq sırf mentalitetimizə, milli-mənəvi dəyərlərimizə uyğun sərgi təşkil edilibdir. Kim istəsə meyvələrin heykəlinə baxıb orucunu aça bilər. Mən şeyximizdən soruşmuşam, deyir məqbuldur. Bəlkə də məchuldur, lakin məkruh deyildir. Ola bilsin bir az da məkrubdur.

Növbəti sərgilərdə, hesab edirəm, başqa ərzaq məhsullarını da nəzərdə tutmaq lazımdır. Bəyəm dünyada dana, qoyun, camış, keçi, toyuq heykəlləri düzəldən sənətkarlar yoxdurmu? Şübhəsiz, vardır. Xahiş edirik onların da əsərləri Bakıya gətirilsin, camaata göstərilsin. Yalnız meyvə-tərəvəzə baxmaqla keçinmək çətindir, ət də lazımdır. Sümüksüz dana ətinin kilosu 20 manata qalxmışdırsa, bunu hamı ala bilmir.

Sözgəlişi, belə sərgilərə pensiyaçı və aztəminatlı ailələrin, tələbələrin ekskursiyası təşkil olunsa yaxşı olar. Sosial müdafiə nazirliyi avtobus ayırsın, gəlib baxsınlar.

Təbii ki, ətlik heyvan heykəllərinin sərgisində izahedici yazılara da xüsusi nəzarət olmalıdır. Yoxsa birdən heykəltəraş eşşək heykəlini camaata "Dana" adıyla sırısa... Bunun mənəvi ziyanını düşünmək belə istəmirəm.

# Ermənistan müharibəyə hazırlanır

## Avropanın sülh deyil, müharibə fondu Ermənistanı savaşa sürükləyir; təktərəfli silahlandırmanın sirri odur ki...

**Avropa İttifaqı (Aİ) müttəfiqlərin müdafiəsini dəstəkləməyi nəzərdə tutan Avropa Sülh Fondundan Ermənistana daha 10 milyon avro yardım ayırmağa hazırlaşır.**




"Yeni Müsavat"ın siyasət şöbəsi yazır ki, bu barədə "Azadlıq" radiosunun erməni xidmətinin Brüsseldəki mənbələri məlumat yayıb. Qeyd olunur ki, Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə yeni ali nümayəndəsi Kaya Kallas bu təklifi yaxın həftələrdə müzakirə edilməli olan Aİ Şurasına təqdim edib. Lakin müzakirənin dəqiq tarixi hələ müəyyən edilməyib. Təklif Aİ-yə üzv olan 27 ölkənin hamısı tərəfindən bəyəniləcəyi təqdirdə qüvvəyə minəcək.

Yada salaq ki, ötən il Macarıstan ilk dəfə olaraq ayrılan belə bir yardımın verilməsinə maneə yaratmış, Azərbaycanın da proqrama daxil edilməsini tələb etmişdi. Həftələrlə davam edən qapalı danışıqlardan sonra avropalı diplomatlar rəsmi Budapeştin müqavimətini dəf edə bilmişdilər. Bəs bu il necə olacaq, Macarıstan və Azərbaycana yaxın digər üzv dövlətlər hansı mövqe tutacaq, hələlik bəlli deyil. Ermənistan 2021-ci ildə yaradılan Aİ Sülh Fondundan keçən il ilk dəfə olaraq 10 milyon avro alıb. Diplomatik sənədlərə görə, bu yardımın məqsədi "Ermənistan silahlı qüvvələrinin dayanıqlığını və sabitləşdirmə qabiliyyətini artırmaq, habelə böhran və fövqəladə vəziyyətlərdə mülki əhalinin daha effektiv müdafiəsini təmin etməkdir". Əslində isə söhbət öz qonşularına qarşı hələ də rəsmən ərazi iddiası olan bir avantürist ölkəni silahlandırmaqdan gedir.

Ermənistan növbəti maliyyə dəstəyi ayrılarsa, Bakının reaksiyası necə olacaq? Brüsseli xain hərəkəti üzündən sülh danışıqları bir az da dalana girə, müharibə riski arta bilərmi? Nəhayət, Aİ belə ədalətdirsə, 20 faiz torpaqları Ermənistan tərəfindən çirkləndirilmiş Azərbaycana heç olmasa, minaların təmizlənməsi üçün minimal həcmdə maliyyə dəstəyini niyə vermir? Avropa İttifaqı dəfələrlə Azərbaycan və Ermənistanı sülhə çağıran bəyanatlar verib, danışıqlar üçün məkan olub. Bu bəyanatların fonunda Ermənistanı təktərəfli silahlandırması isə anlaşılan deyil və müəyyən suallar doğurur. 2024-cü ildə də Aİ Avropa Sülh Fondundan Ermənistana tranş ayırmışdı. Avropa İttifaqı Şurası tərəfindən iyulun 22-də Avropa Sülh Fondu çərçivəsində Ermənistana 10 milyon avro məbləğində hərbi yardım edilməsi barədə qərar qəbul edilmişdi.

Nəzərə alaq ki, Ermənistana yerləşdirilmiş Aİ Müşahidə Missiyası artıq hərbi missiyaya çevrilməkdədir. Aİ tərəfindən rəsmi İrəvana hərbi yardımın göstərilməsi də bu prosesin davamıdır. Avropa Sülh Fondu 44 günlük Vətən müharibəsindən sonra Ermənistanın silahlandırılmasında aktiv iştirak edən qurumlardan birinə çevrilib ki, bu da onun əsl missiyasından tamamilə uzaqlaşdığını göstərir. Avropa Sülh Fondu 44 günlük Vətən müharibəsindən sonra Ermənistanın silahlandırılmasında aktiv iştirak edən qurumlardan birinə çevrilib ki, bu da onun əsl missiyasından tamamilə uzaqlaşdığını göstərir.

Professor Qabil Hüseynlinin "Yeni Müsavat"a bildirdiyinə görə, Avropa Sülh Fondu Ermənistandan məzlum obrazı düzəldir və ona yardım ayırmaqla əzilən tərəf kimi qələmə verir. Professor hesab edir ki, obyektivlik olsaydı, həmin maliyyə dəstəyi işğala məruz qalan ölkəyə ayrılardı. Q.Hüseynlinin fikrincə, ötən ilin 5 aprelində Brüsseldə keçirilmiş görüşün praktik nəticələri hissə-hissə görünməkdədir: "Ermənistana ictimaiyyət qarşısında elan edilməyən yardım icra olunur. Bunu hərbi pakt adlandırmaq mümkündür. Çünki Avropa Sülh Fondu sülhə xidmət etmək yerinə eskalasiyaya dəstək verir. Bu da işğalını revanşizmə həvəsləndirir". Həmsöhbətimizin sözlərinə görə, 5 aprel görüşünün nəticələri gizlədilir, lakin Aİ-nin İrəvana yardımları həmin razılaşmadan irəli gəlir: "Azərbaycan minaların təmizlənməsi, işğalçı ordunun viran qoyduğu şəhərlərin bərpası ilə bağlı xaricdən ciddi dəstək ala bilmir. Bu da bizə qərəzdən qaynaqlanır. Dünyada az sayda görünən haldır ki, işğalçının dirçəlişi üçün proqram hazırlanır. Buna "Marşal planı" da demək olar. Beləliklə, Avropadan Ermənistana yardımlar genişmiqyaslı hərbi toqquşmalara səbəb olmasa belə, bölgədə sabitliyi təhdid edir".

Siyasi ekspert Züriyə Qarayevanın qənaətinə görə, hazırda Avropa İttifaqının bu yardımı elan etməsi üçün tezdir. Onun hesablamaları bundan ibarətdir ki, Brüsselin başı Kiyevə yardıma qarışıb və bu səbəbdən Ermənistan yada düşmür: "Ukrayna böhranı Avropanın təhlükəsizlik probleminə çevrilib. Belə şəraitdə isə öz hayında olan Qərbin Ermənistana ürəyi belə yanmır. Ona görə bu qərarın tezliklə nəticələnməsini gözləmirəm. Ermənistan da yaxşı bilir ki, Azərbaycan növbəti müharibəyə maraqlı deyil. Biz də bilirik ki, Ermənistanən müharibə aparmaq potensialı yoxdur. Sadəcə, düşməni silahlandırıb impuls verənlər var".

Ekspertin fikrincə, yeni münaqişə gözlənilmir, amma Ermənistana hərbi dəstək verənlərin siyasi məqsədləri var: "Birincisi, regionu qarışdırmaq hədəfi mövcuddur. Bununla da Cənubi Qafqaza təsiri gücləndirmək niyyəti güdülür. Yəni silahı verən Avropa yaxşı başa düşür ki, Ermənistanın müharibəlik taqəti qalmayıb. İntəhası, regionda mövqeləri möhkəmləndirmək lazımdır. Bunu da Paşinyan iqtidarının əli ilə həyata keçirə bilərlər".

Z. Qarayeva Brüsselin addımlarının cavabsız qalmadığını düşünür: "Azərbaycan boş oturmayıb. Əvvəla, bu il büdcədən müdafiə xərclərinə ayrılan vəsaitə baxmaq lazımdır. Halbuki sosial sahəyə yönəldə bilərdik. Amma Ermənistan kimi düşmənim olduğunu nəzərə almalıyıq. Üstəlik, müasir silahlar əldə edirik. Pakistan da artıq qırıcı təyyarələr verəcəyini açıqlayıb. Həmçinin İsrail və digər ölkələrlə silah alqı-satqısı aparılır. Bu da təsadüfi deyil. Azərbaycan yekun sülh sənədinə qədər bunu etməyə məcburdur, çünki düşmən silahlanır".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

## Simonyana qəribə sual: "Matviyenkonu qucaqlayacaqsınız?"



**Ermənistan parlamentinin spikeri Alen Simonyan yayda İrəvana gələcək rusiyalı həmkarı Valentina Matviyenkonu necə qarşılayacağı ilə bağlı qərarsızdır. Bu barədə Ermənistanda nəşr olunan "Joqovurd" qəzeti yazır. Nəşr bununla bağlı Ermənistan parlamentinin rəhbərinə belə bir sorğu göndərib:**

"2022-ci il sentyabrın 17-də siz ABŞ Konqresinin Nümayəndələr Palatasının o vaxtkı sədri Nensi Pelosini hava limanında bir buket güllə qucaqlayıb qarşılayanda Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko bu isti münasibətdən məəttəl qalmışdı. Cavab olaraq, siz söz vermişdiniz ki, Ermənistana gələndə onu da belə qarşılayacaqsınız. Matviyenko yaxın vaxtlarda Ermənistana gələcək, ona görə də biz bilmək istəyirik ki, siz vədinizə əməl edib, onu təyyarənin pilləkənlərində qucaqlayaraq qarşılayacaqsınız?"

"Joqovurd"un yazdığına görə, Alen Simonyan hələ də bilmir ki, vədini yerinə yetirəcək, ya yox. "Bu, "İnformasiya azadlığı haqqında" qanuna bağlı sual deyil", - erməni spikerin ofisindən nəşrə deyilib. Xatırladaq ki, Rusiya Federasiya Şurasının sədri ilkin razılığa əsasən, iyunun 5-6-da İrəvanda olacaq.



## Ərdoğan: “Türkiyə Aİ-dən cavab gözləyir”

**Türkiyənin Avropa İttifaqına (Aİ) üzvlük hədəfi olduğu kimi qalır. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Aİ-yə üzv dövlət liderlərinin onlayn görüşündə deyib.**

Ərdoğan Avropanın təhlükəsizliyi ilə bağlı bütün addımları Türkiyə ilə birlikdə planlaşdırmağın qarşılıqlı maraqlara xidmət etdiyini əlavə edib. “Türkiyə Aİ-nin strateji və uzaqgörən münasibət bəsləməsini və üzvlüklə bağlı müzakirələri canlandırmasını gözləyir”.

# Avropadan Azərbaycana qarşı növbəti demarş

## Bakıda ermənilərin mühakimə edildiyi məhkəmə ilə bağlı yeni qətnamə hazırlanır - sərt etirazlar...

**Avropa Parlamentinin üzvləri Bakıdakı “erməni hərbi əsirlərə” və həbsdəki digər “əsirlərə qarşı işgəncə və pis rəftarla bağlı həyəcanverici xəbərlərlə” bağlı təcili müzakirələrə başlaya bilərlər. Bu barədə Brüsseldəki diplomatik mənbə armenpress-ə bildirib.**

İddia olunur ki, azərbaycanlıların “qanunsuz həbs edilən ermənilərə qarşı məhkəmə prosesinin nümayişi”, eləcə də məhbusların məhkəmə zallarından “açıq-aşkar fiziki tənəzzül və işgəncə əlamətlərini əks etdirən son görüntüləri” beynəlxalq müdaxilə üçün geniş çağırışlara, eləcə də Avropa Parlamenti üzvlərinin “narahatlığına” səbəb olub. Avropa Parlamentinin qarşıdan gələn plenar iclasında məsələyə mümkün reaksiya və qətnamə ilə bağlı müzakirələr aparılır.

Qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyan bu yaxınlarda Azərbaycandakı məhkəməni “tamaşa”, xarici işlər naziri Ararat Mirzoyan isə “qondarma” proses adlandırıb.

Göründüyü kimi, Ermənistan və erməni lobbisi iş başındadır. AP-nin erməni diasporunun pulu ilə danışan üzvləri isə yeni qətnamə qəbul etməyə hazırlaşırlar. Halbuki onlar əsir deyil və dövlət içində “dövlət” yaratmaq iddiasında olublar. Avropalı deputatlar öz ölkələrində belə terrorçu rejimə necə reaksiya verərdilər? Azərbaycana qarşı daha bir qərəzli, şər-böhtan dolu sənədin qəbulu nəyi dəyişəcək?

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə “Yeni Müsavat”a bildirdi ki, Azərbaycana qarşı bu cür qərəzli davranış gözləniləndir, amma hər cür abırsız hərəkətin bir sonu olsa da təəssüf ki, Avropa Parlamenti kimi təşkilatların qərəzinin sonu yoxdur: “Onlar Azərbaycanın torpaqları Ermənistanın işğalı altında olduğu dövrdə də ədalətsizlik nümayiş etdirirdilər, torpaqlarımızı azad etmək üçün müharibə apardığımız zamanda da qərəz püskürürdülər, beynəlxalq hüquqa arxa çevirərək Azərbaycana qarşı şər-böhtan yağdırırdılar. İndi isə müharibə cinayətləri, soyqırım cinayətləri törətmiş, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi, deportasiya və digər saysız-hesabsız cinayətlər törətmiş, bir dövlətin içində qanunsuz "dövlət" elan etmiş canilərlə bağlı aparılan məhkəmə prosesi Avropa Parlamentini, Ermənistan hökumətini narahat edir. Cinayətləri ortada olan şəxsləri insanlıq əleyhinə cinayətlər törətmiş şəxsləri müdafiə etmək cinayətə şərik çıxmaq və beynəlxalq hüququ tapdamaqdır".

Çingiz Qənizadəyə görə, məsələnin başqa bir tərəfi odur ki, hazırda məhkəmələri gedən şəxslərin bir çoxu artıq istintaqla səmimi əməkdaşlıq edir, onların verdiyi ifadələr birbaşa göstərir ki, bu müharibəni Ermənistan aparıb, onlara əmrlər, silah-sursat Ermənistandan gəlib: “Məhkəmə prosesinin gedişindən isə mühakimə olunan şəxslər razılıqlarını ifadə edirlər, onlara hər hansı formada təsir, təzyiq edilmədiyini bildirirlər. Onlarla Azərbaycanın Ombudsmanı şəxsən görüşüb. Bellə bir reallıq ortada olduğu bir vaxtda Avropa Parlamentindəki erməni lobbisinin hay-küy salmağa çalışması əbəsdir”.



Ekspert hesab edir ki, Ermənistan rəhbərliyi Bakıda məhkəməsi gedən ermənilərin Ermənistan dövlətinin cinayətlərini açıb etiraf edən ifadələr verməsindən narahat olmağa başlayıb: “Ona görə də Nikol Paşinyan və digərləri məhkəmə prosesinə qarşı qarayaxmalara başlayıblar. İç üzlərinin açıqlacağından qorxurlar. Onlar bilirlər ki, mühakimə olunan ermənilərin Ermənistanın cinayətlərini məhkəmədə ifşa edən ifadələr verməsi gələcəkdə Ermənistan dövlətinin beynəlxalq məhkəmələrdə vəziyyətini ağırlaşdıracaq, Ermənistan cavab verməli olacaq. O səbəbə Ermənistan hakimiyyəti, onların Avropa Parlamenti kimi təşkilatlardakı havadarları Bakıda keçirilən məhkəmə prosesini şübhə altına almağa çalışırlar. Lakin bu cəhdlərinin nəticə verməyəcəyi məlumdur. Məhkəməsi gedən ermənilər istədikləri vəkillərlə təmin olunublar, onlara qarşı hər hansı fiziki, mənəvi, psixoloji təzyiq olmadığını dəfələrlə bəyan ediblər. Məhkəmə prosesi də açıq, şəffaf keçirilir. Prosesdə xarici dövlətlərin səfirliklərinin əməkdaşlarının da iştirakına qadağa yoxdur”.

Ədalət Partiyasının sədr müavini, siyasi ekspert Mütəllim Rəhimli isə bildirdi ki, hazırda məhkəməsi gedən erməni terrorçu-separatçıları özlərinin də etiraf etdikləri kimi, Azərbaycan qanunlarına tabe olmayıblar: “Onlar həm də ölkəmiz əleyhinə fəaliyyət göstəriblər, dinc sakinləri qətlə yetiriblər, Azərbaycan ordusuna qarşı döyüş təşkil ediblər. Belələrinin hərəkətlərini heç bir qanun, əxlaq müdafiə edə bilməz. Onlar mütləq cəzalandırılmalıdır ki, gələcəkdə heç kim belə hərəkətlərə yol verməsin. Azərbaycan tərəfi haqlı olaraq məhkəmə prosesini açıq keçirir. Bu da imkan verir beynəlxalq ictimaiyyət də ermənilərin niyyətləri və törətdikləri əməllərlə tanış ola bilsin. Müttəhimlərin durumu əməllərindən qaynaqlanır, çünki cinayətlərinin adekvat cəza alacağını təsəvvür edə bilirlər. Məhz buna görə fiziki olaraq tənəzzül yaşaya bilərlər. Onlar qürurlu və mənəvi-psixoloji baxımdan güclü insanlar olsaydılar, heç vaxt separatçı və qatil rolunda çıxış etməzdilər. Avropa Parlamentinin üzvləri müttəhimlərin üzünə baxıb həyəcan keçirməkdənsə, onların əməllərinə baxıb həyəcan keçirsinlər. Bu daha obyektiv baxış olardı. Yaxud da bəzi Avropa parlamentariləri nədən həyacan keçirdiklərini qarışdırıblar və həqiqəti itiriblər.

Avropalı deputatlar bu məsləyə prinsipial yanaşmalıdırlar, ikili mövqe onları hörmətdən salır və sözlərinin çəkiləri də itir. Necə olur ki, Ukraynanın ərazi bütövlüyünü dəstəkləyən, ona hərbi yardımlar göstərən Avropa Parlamenti Azərbaycanı bölməyə çalışanları müdafiə edir. Təbii ki, onların niyyətləri siyasi xarakterlidir və Azərbaycan tərəfi də məsləyə bu aspektdən yanaşaraq problemi həll etməyə çalışmalıdır".

Ekspert qeyd etdi ki, son vaxtlar ölkəmizin Avropa ilə barışmayan münasibətləri getdikcə gərginləşməkdədir. Eyni zamanda, Fransanın ermənipərəst sevgisi və xristian təəssübkeşliyi də burada əhəmiyyətli rol oynayır. Görünür bütün bunlar da Avropa Parlamentinin ölkəmizə qarşı böhtan dolu sənədin qəbulu ilə bağlı fikirlərin meydana çıxmasına səbəb olub. Ancaq bu yolla məhkəməyə təsir etmək mümkün deyil. Hansısa bir qətnamənin heç bir təsir effekti və əhəmiyyəti olmayacaq".

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

## Peskov: “Avropanın nüvə arsenalları nəzərə alınmalıdır”



**Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov ABŞ prezidenti Donald Trampın Rusiya Federasiyası və Çinlə nüvə tərksilahına dair danışıqlara başlamaq istədiyi barədə sözlərini şərh edib. Musavat.com Rusiya mediasına istinadla xəbər verir ki, Peskov deyib: “Bu mövzu Rusiya Federasiyası ilə ABŞ arasında silahlara nəzarət üzrə dialoqun gündəmindədir”. O qeyd edib ki, bu müzakirələr zamanı Fransa və Böyük Britaniyanın nüvə arsenallarına göz yummaq mümkün deyil.**

“Bu arsenalların nəzərə alınmasının aktuallığı Makronun Fransanın Avropa dövlətlərinin təhlükəsizliyi üçün nüvə çətiri təmin etmək niyyəti ilə bağlı bəyanatlarını nəzərə alsaq, əvvəlkindən daha böyükdür”, - Kreml sözçüsü bildirib. Peskov əlavə edib ki, bəzi Avropa dövlətləri Makronun ideyasını dəstəkləməyə tələsiblər. Onun sözlərinə görə, nüvə silahı üzrə danışıqlar zamanı Avropanın nüvə arsenalları diqqət mərkəzində olmalıdır. ABŞ prezidenti Donald Tramp əvvəllər Ağ Ev administrasiyasının nüvəsizləşdirmə üzrə Rusiya və Çinlə danışıqlar aparmaq istədiyini bildirib. O, əlavə edib ki, Fransa prezidenti Emmanuel Makronun təklif etdiyinin “əksini” istəyir.

❑ **Musavat.com**



# Bu gün Qadınlar bayramıdır

## Tənzilə Rüstəmxanlı: "Azərbaycan qadını ölkəmizin inkişafı fonunda özünün yüksəliş dövrünü yaşayır"

**Bu gün, 8 mart Beynəlxalq Qadınlar Günü dünyada və ölkəmizdə geniş şəkildə qeyd edilən əlamətdar bir gündür. Bu bayram qadınların cəmiyyətə verdiyi töhfələri vurğulamaq, onların hüquqlarını müdafiə etmək və gender bərabərliyini təşviq etmək məqsədi daşıyır.**

Ölkəmizdə 8 mart rəsmi bayramlar sırasına daxildir və bu gün qadınların ictimai, sosial və iqtisadi həyatda roluna diqqət yetirilir. Hər il bu tarixdə qadınlara olan sevgi və hörmət müxtəlif tədbirlərlə ifadə olunur - konsertlər, sərgilər, konfranslar təşkil edilir, xanımlara hədiyyələr təqdim olunur.

Eyni zamanda, bu gün qadın haqları mövzusunda maarifləndirici tədbirlərin keçirilməsi üçün də bir fürsət yaradır. Qadınların hüquq və azadlıqlarının qorunması, onların ictimai həyatda daha fəal iştirakının təmin edilməsi istiqamətində görülən işlər gündəmə gətirilir.

Beləliklə, 8 mart yalnız sevgi və minnətdarlığın simvolu deyil, həm də qadınların səsi və mövqeyi üçün önəmli bir platformadır.

Bu gün Azərbaycan qadınının şəxsi və ictimai həyatda özünütəsdiq baxımından əsas qayğısı, problemi nədir? Ondan ötrü ən önəmli olan nədir? Azərbaycan qadını xoşbəxtliyi nədə görür - gözəl ailədə, gözəl peşədə, yoxsa?

Millət vəkili Tənzilə Rüstəmxanlı mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. Millət vəkili qeyd edib ki, Azərbaycan qadını 8 Mart Beynəlxalq Qadınlar Gününü ruh yüksəkliyi şəraitində qeyd edir, layiq olduğu ictimai diqqət və qayğını məmnunluq duyğuları ilə qarşılayır:

"Həmişə sülhün, əmin-amanlığın fəal carçısı olmuş Azərbaycan qadınları tarixən ölkə həyatı və taleyi ilə bağlı ictimai-siyasi proseslərin gedişində üzərlərinə düşən vəzifələrin öhdəsindən ləyaqətlə gəlmiş, milli dövlətcilik mövqeyindən çıxış etmişlər. Amma bu sahədə müəyyən problemlər də yox deyil. Azərbaycan qadınının şəxsi həyatda özünütəsdiq məsələsində qarşıya çıxan ən ciddi problem məişət zorakılığıdır. Ölkəmizdə qadınlara və qızlara qarşı zorakılığın aradan qaldırılması sahəsində qanunvericilik bazası mövcuddur və daim təkmilləşir, qadınların hüquqlarının müdafiəsi üçün sosial proqramlar həyata keçirilir, davamlı olaraq maarifləndirmə kampaniyaları aparılır. Lakin bütün bunlara baxmayaraq, hələ də bütövlükdə qadınlara qarşı zorakılıq tam şəkildə aradan qaldırılmayıb. Bəzən nikaha məcbur etmə, qızqaçırma, hansısa milli adət, ənənəni, qısqanclıq zəminində baş verən qətlləri zorakılıq kimi qəbul etmirlər. Hamılıqla mübarizə aparmalıyıq ki, insanların bu anlayışa münasibəti dəyişsin. İctimai həyatdakı fəaliyyətə gəldikdə isə vəziyyət xeyli qənaətbəxşdir. Bu gün müstəqil Azərbaycan qadınları parlamentdə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsildə, səhiyyədə, ölkə iqtisadiyyatının inkişafında sahibkar kimi biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, milli təhlükəsizlik və hüquq-mühafizə orqanlarında kişilərlə bərabər rəhbər vəzifələrdə təmsil olunurlar. Xüsusi ilə qeyd etmək lazımdır ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyəti nəticəsində Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında aktiv iştirakına marağı artmışdır. Bütün hallarda müharibələr, siyasi və iqtisadi böhranlar girdabında olan dünyamızda Azərbaycan qadını ölkəmizin inkişafı fonunda özünün yüksəliş dövrünü yaşayır".

Hüquq müdafiəçisi və Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu bildirib:

"Azərbaycan qadını həqiqətən də xoşbəxt ailə arzusundadır. Yaşından asılı olmayaraq - istər gənc, istər yaşlı - hər bir qadın istəyir ki, sağlam ailə mühiti yaratsın, övladlarını düzgün tərbiyə etsin və onları cəmiyyətə layiqli şəkildə böyütsün. Bununla yanaşı, müasir dövrün tələblərinə uyğun olaraq, qadınlar həm də karyera qurmağa, öz sahələrində uğur qazanmağa çalışırlar.

Son illərdə qadınlarımızın, xüsusilə də gənc nəslin karyera ambisiyalarının artması məni çox sevindirir. Çoxsaylı gənc qadınlarımız müxtəlif şirkətlərdə, dövlət qurumlarında, eləcə də özəl sektorda məsul vəzifələrdə çalışırlar. Bu, bir tərəfdən qadınların iqtisadi müstəqilliyini təmin edir, digər tərəfdən isə onların cəmiyyətin sosial və iqtisadi həyatında aktiv iştirakına şərait yaradır. Arzu edirəm ki, Azərbaycan qadınları daha da uğurlu olsunlar, hər biri öz sahəsində yüksəlsin və layiqli karyera qursun.

Bütün qadınlara tövsiyəm budur ki, heç vaxt işləməkdən, öz üzərlərində çalışmaqdan imtina etməsinlər. İşləsinlər, bilik və bacarıqlarını inkişaf etdirsinlər. Ailələrini sevsinlər, amma özlərini də unutmasınlar. Unutmayaq ki, qadın təkcə ailənin deyil, həm də cəmiyyətin fəal üzvüdür. Özlərinə vaxt ayırsınlar, sağlamlıqlarına, şəxsi inkişaflarına diqqət yetirsinlər. Ailə və karyeranı düzgün balanslaşdırmaq müasir qadının əsas məqsədlərindən biri olmalıdır.

Azərbaycan qadınlarının ən böyük qayğılarından biri ailədir - onlar üçün evin rifahı, ailə içində sakitlik və övladlarının gələcəyi hər zaman birinci yerdədir. Həyat yoldaşının evə az və ya çox pul gətirməsindən asılı olmayaraq, qadınlar bu çətinliklərə dözərək, ailənin yükünü çəkməyə çalışırlar. Hər zaman övladlarının yaxşı təhsil alması üçün əllərindən gələni edirlər.

Əvvəllər analar daha çox oğlan övladlarının təhsilinə üstünlük verirdilərsə, bu gün biz görürük ki, həm analar, həm də atalar qızlarının təhsilinə ciddi önəm verirlər. Çünki müasir dövrdə heç kim gələcəyə tam etibar edə bilmir. Qızların təhsilli və savadlı olması o deməkdir ki, onlar ailə qurduqları zaman həyat yoldaşlarından və onların ailəsindən iqtisadi cəhətdən asılı olmayacaqlar. Bu isə qadının həm ailədə, həm də cəmiyyətdə mövqeyini daha da möhkəmləndirir.

Azərbaycan qadını tarixən ictimai-siyasi həyatda fəal olub. Bu gün də biz çox sayda qadınlarımızı Milli Məclisdə, müxtəlif nazirliklərdə, dövlət qurumlarında, eləcə də ölkənin Birinci vitse-prezidenti səviyyəsində təmsil olunduğunu görürük. Lakin arzu edərdim ki, qadınlarımızın siyasi həyatda rolu daha da artsın, onların səsi daha yüksək çıxsın. Qadınların siyasətdə, dövlət idarəçiliyində və ictimai həyatın bütün sahələrində fəallığı ölkəmizin inkişafına mühüm töhfə verə bilər.

Sonda bütün Azərbaycan qadınlarını 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edirəm! Arzu edirəm ki, hər bir qadın həm ailəsində, həm də iş həyatında uğurlu olsun, sevgi və hörmət içində yaşasın!"

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# 8 martın əvəzində hansı gün iş olmayacaq? - QƏRAR




**Bu gün 8 Mart Beynəlxalq Qadınlar Günüdür. Əmək Məcəlləsinə əsasən, Azərbaycanda 8 Mart tarixi həmişə qeyri-iş günü olub. Builki 8 Mart tarixi şənbəyə təsadüf etdiyindən 10 mart (bazar ertəsi) da istirahət günü elan olunmalıydı. Lakin Nazirlər Kabinetinin 8 martla bağlı hər hansı qərarı verilmədi. Yəni 10 mart adi qaydada iş günü olacaq. Musavat.com xəbər verir ki, əvəzində 10 mart tarixinin yerinə 27 mart qeyri-iş günü elan olunub. Belə ki, Nazirlər Kabinetinin "İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında" 15 fevral 2025-ci il tarixli qərarında deyilir: "İş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2025-ci il 27 və 28 mart iş günləri ilə müvafiq olaraq 10 mart və 1 aprel istirahət günlərinin yerləri dəyişdirilsin". Beləliklə, ölkəmizdə ardıcıl 12 gün - martın 20-dən aprelin 1-dək qeyri-iş günləridir. Həmin tarixlərdə həm Novruz bayramı, həm də Ramazan bayramı (30-31 mart) qeyd olunacaq. Bayramdan sonra ilk iş günü isə aprelin 1-i olacaq.**

❑ Musavat.com

# DYP 8 Martla bağlı çağırış etdi




**Baş DYP İdarəsi olaraq 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə bütün xanımları təbrik edir, həmin gün yol hərəkətində iştirak edən hər kəsin diqqətli və məsuliyyətli davranmasının vacibliyini bir daha xatırladırıq. Musavat.com xəbər verir ki, bu barədə Baş DYP İdarəsinin xanımlara müraciətində qeyd edilib. Bildirilib ki, bu il 8 martın həftəsonuna təsadüf etməsi şəhərdaxili yollar və əsas magistrallarda, istirahət mərkəzlərinə və rayonlara gedən yollarda nəqliyyat vasitələrinin və sərnişin axınının artacağını göstərir. Bu isə sürücülərdən və piyadalardan daha çox diqqət və məsuliyyət tələb edir. "Sürücülər sükan arxasında diqqətli olmalı, sürət həddinə riayət etməli, piyada keçidlərindən yalnız nəzərdə tutulmuş qaydalara uyğun istifadə etməlidirlər. Yolda tələskənlik, qaydalara laqeyd yanaşmaq və diqqətsizlik xoş olmayan hadisələrlə nəticələnə bilər. Piyadalar da yollarda ehtiyatlı davranmalı, qəfil yolun hərəkət hissəsinə çıxmamalı, yalnız müəyyən olunmuş keçidlərdən istifadə etməlidirlər. Unutmayaq ki, hər birimizin sağlamlığı və təhlükəsizliyi ilk növbədə özümüzdən asılıdır. Bayram günlərini xoş xatirələrlə yadda saxlamaq üçün yol hərəkəti qaydalarına əməl edək",-deyə müraciətdə əlavə edilib.**

Yeni MÜSAVAT
N 44 (8654) 8 mart 2025

# Evlənmək istəyənlərdən psixoloji test tələbi qanunilәşsinmi? - rəy

## Valideynlərin övladlarına işgəncə vermələri halları artıb; əgər zəruri addımlar atılmasa, daha kritik vəziyyət yaranacaq

**Paytaxtda bir “ana”nın 4 yaşlı övladına işgəncə verməsini əks etdirən videogörüntü cəmiyyəti yenidən silkələdi. Videoda ana adlandırılan varlıq uşağını çubuqla döydükdə incitmədiyi üçün naqillə vurduğunu deyir. Bəlli oldu ki, uşağın bədənində sağlam yer yoxdur. Artıq polis əməkdaşları azyaşlıya zorakılıq göstərən “ana”nı saxlayıb. Onun barəsində Cinayət Məcəlləsinin əzab vermə maddəsi ilə cinayət işi başlanılıb.**



Son illərdə Azərbaycanda valideynlərin övladlarına qarşı zorakılıq halları ilə bağlı bir sıra hadisələr qeydə alınıb. Ötən illərdə Bakının Sabunçu rayonunda iki azyaşlı qardaşın ataları və ögey anaları tərəfindən mütəmadi şəkildə döyülərək fiziki ağrılar yetirilməsi faktı aşkarlanıb. Hadisə ilə bağlı cinayət işi açılıb və valideynlər məsuliyyətə cəlb ediliblər. Belə faktların sayını artırmaq da olar.

Ekspertlərə görə, bu cür hallar uşaqların fiziki və psixoloji inkişafına ciddi zərər vurur. Azərbaycan qanunvericiliyinə əsasən, övladlarına qarşı zorakılıq edən valideynlər inzibati və cinayət məsuliyyətinə cəlb edilə bilərlər. Belə hallarda valideynlərin valideynlik hüquqlarından məhrum edilməsi də mümkündür.

Pediatr Vaqif Qarayev deyib ki, ailə qurmaq istəyənlərin psixoloji durumu yoxlanmalı və bu məcburi şəkildə olmalıdır. Psixoloq Ülviyyə Murtuzova da təklifi dəstəkləyib. “Bizdə evlilik öncəsi necə ki, sağlamlıqla bağlı tibbi arayışın tələb olunur, eləcə də psixoloji müayinənin də tətbiq olunacağı barədə məsələ tez-tez gündəmə gətirilir. Amma bu, praktikada tətbiq olunmur. Halbuki dünya praktikasında da vurğulanır ki, hətta sağlamlıq arayışından öncə psixoloji testlərin aparılması daha vacibdir. Əgər bir insanda ciddi psixoloji pozuntular və qeyri-adekvat davranışlar müşahidə olunursa, bu, təkcə həyat yoldaşı üçün deyil, həmçinin onun ailə üzvləri üçün də təhlükə yarada bilər”, - psixoloq vurğulayıb.

Bəs təklif qanun şəklini ala bilərmi? Alarsa, psixoloji test də dövlət hesabına, yeni pulsuzmu olacaq?

Milli Məclisin deputatı Ceyhun Məmmədov mövzu ilə bağlı “Yeni Müsavat”a deyib ki, son dövrlər valideynlərin övladlarına qarşı ciddi formada işgəncə vermələri hallarının artıb. Bu ciddi məsələdir.

Çünki psixologiyası yerində olmayan ana və ata övladına şiddət tətbiq edə bilər. Ona görə də bu məsələnin həlli üçün addımlar atılmalıdır və bunun meyarları da müəyyənləşdirilməlidir. Ümumiyyətlə, sağlam, bacarıqlı nəslin yetişdirilməsi məsələsi xüsusi önəm və əhəmiyyət daşıyır. Proseslər göstərir ki, getdikcə bu cür hallar daha da artacaq. Çalışmalıyıq ki, ailələrimiz və insanlarımız psixoloji baxımdan sağlam olsunlar. Nikaha daxil olarkən biz bunu onların fəaliyyətində, yanaşmasında görə bilək. Bir daha qeyd edirəm ki, bu, ciddi bir problem olaraq qarşımızda dayanır”.

Yada salaq ki, 2014-cü il dekabrın 15-də “Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında” qanuna edilən dəyişikliyə əsasən, artıq nikaha girən şəxslərdən sağlamlıq haqqında arayış tələb olunur. Sağlamlıq haqqında arayışın tələb olunması, təbii ki, çox müsbət haldır. Amma sağlamlıq, sadəcə müxtəlif orqanların müayinəsi ilə bitmədiyi üçün bu qanuna edilən dəyişiklik sanki yarımçıqdır. Qeyd edildiyi kimi, evlənmədən öncə həm fiziki, həm də psixoloji sağlamlığın müayinəsi olduqca vacibdir.

Hüquqşünas Ramil Süleymanov da mövzu ilə bağlı fikrini “Yeni Müsavat”a bildirib: “Vaxtilə evlənən cütlüklərin məcburi tibbi müayinədən keçməsi ilə bağlı təklif irəli sürüldükdə, bəzi insanlar bunu dəstəkləmədilər. Onlar qeyd edirdilər ki, heç kim məcburi tibbi müayinəyə məruz qala bilməz və heç kimin üzərində hər hansı tibbi yoxlama aparıla bilməz. Lakin burada dövlətin siyasi iradəsi ortaya qoyuldu və nəticə etibarilə bu, qanunvericilik səviyyəsində təsbit olundu. Beləliklə, evlənən cütlüklər üçün tibbi müayinədən keçmək məcburi oldu.

Düzdür, bu tibbi müayinənin özündə də kifayət qədər qüsurlar mövcuddur. Amma bu qüsurlar bütün sahələri əhatə etməsə də, ən azından insanlar müəyyən qan analizləri və digər yoxlamalardan keçirlər və bu proseduru yerinə yetirmiş olurlar. Bu təklifi mən də dəstəkləyirəm. Hesab edirəm ki, dövlət qeyri-hökumət təşkilatları ilə birlikdə layihələr həyata keçirməlidir və mütləq şəkildə burada psixoloqlar müəyyən mərkəzlərə, o cümlədən tibb mərkəzlərinə və ASAN Xidmət mərkəzlərinə cəlb olunmalıdır.

Bildirmək istəyirəm ki, belə olan təqdirdə evlənmək üçün tərəflərin təqdim etdiyi ərizənin müddəti bir ay nəzərdə tutulmalıdır. Təxminən hesab edirəm ki, evlənmək üçün ərizə təqdim olunduqdan sonra nikahın rəsmiləşdirilməsi üçün 3 ay gözlənilməsi daha uyğun olar. Bu məsələdə 3 aylıq müddət mütləq şəkildə qanunvericilik aktına əlavə olunmalıdır və yalnız bundan sonra psixoloji müayinələrin nəticəsi öz effektini göstərəcək. Psixoloji müayinə dedikdə təkcə psixoloji testlər deyil, tərəflərlə müntəzəm və mütəmadi görüşlərin keçirilməsi, konsultasiyaların aparılması və yoxlamaların edilməsi ilə dəyərlənəzərdə tutulur. Bununla da evlənməyə müraciət edən şəxslərin psixoloji vəziyyəti dəyərləndiriləcək və onların ailə qurmasına icazə verilib-verilməməsi barədə rəy təqdim olunacaqdır”.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**



# Ekran uşağınızı sizdən alır - Valideynlər oxusun!

**Bu gün texnologiya həyatımızın ayrılmaz parçasına çevrilib. Gündəlik həyatımızı onsuz təsəvvür edə bilmirik. Səhər yuxudan onun səsi ilə oyanırıq, oyanan kimi ilk onu götürüb virtual dünyada baş verənləri gözdən keçiririk, onunla yemək yeyirik, yolda qulaqlıqlarımızı taxıb onunla yol gedirik, onunla taksi çağırırıq, onunla ödəniş edirik, onunla paltar seçirik, əylənirik, yazışırıq, günün sonunda da yenə onun mavi şüalarının altında yuxuya gedirik. Söz yox, texnologiya həyatımızı çox asanlaşdırır. Amma bu yeni həyat tərzi bizə yalnız asanlıqmı gətirir?**

Həkim-psixiatr Ramil Hüseynzadə bu barədə vacib məqamları açıqlayıb: “Uzun müddət ekrana baxmaq beynin dofamin mərkəzlərinə təsir edir. Ekranda tez-tez dəyişən görüntülər, sürətli cərəyan edən ssenarilər həmin mərkəzlərin sürətli oyanmalarına, dofamin ifrazına səbəb olur. Dofamin motivasiya və mükafatla bağlı ”hormon"dur. Beləliklə, beynin mükafat və motivasiya mərkəzi “pozulur”. Bu da uşaqlarda zövq alma qabiliyyətini pozur. Depressiya riski yüksəlir, emosional dalğalanmalar yaşayırlar. Emosiyalarını idarə etməkdə çətinlik çəkirlər. Tez-tez özlərini boşluqda hiss edilər. Kövrəkləşirlər. Xırda çətinliklərdə asanlıqla qırıla bilirlər".

Onun sözlərinə görə, ekran məruziyyətinin digər fəsadı isə yuxu pozuntusudur: “Belə ki, ekran işıqları əsas yuxu hormonu olan melatonin sintezini zəiflədərək insanın bioloji ritmini pozur. Nəticədə insan yatsa belə, keyfiyyətli yuxu əldə edə bilmir. Yuxunun pozulması isə öz-özlüyündə insan üçün çox böyük bir fəlakətin işarəsidir. Çünki, yuxu insanın yaddaşını gücləndirir, kreativliyini artırır, insanı daha cəlbedici edir, insanın emosional aclıq tutmalarını azaldır, immun sistemini gücləndirir, demensiya, xərçəng, miokard infarktı, insult, depressiya, həyəcan pozuntusu kimi xəstəliklərin riskini azaldır. Hələ uşaqların məruz qaldığı ekranda verilən mesajların onların xarakterinə göstərdikləri təsiri və ekran asılılığı problemləri də var. Texnoloji vasitələrdə müasir brendlərin psixoloji bombardmanı, müasir şəxsi inkişaf trendləri (”Başqası olma, özün ol", “Ən düzünü sən bilirsən!”, “Heç kimi dinləmə, əsas sənsən!”), neyromarketinq şəkilləri (“Coca cola - dadını çıxar!”) yeni bir anlayışa - “qışqırdılmış yeniyetməlik” fenomeninin yaranmasına səbəb olur. Bu zaman yeniyetmələr daha səthi, dəyərlərdən uzaq, daha çox mənfəətə (şöhrət, fərqlilik, tanınmışlıq) yönəlmiş, eyni zamanda asanlıqla qırıla bilən, kövrək və digərlərini (başqa yeniyetmələri) linç edə bilən düşüncə quruluşuna malik olur. Bu səbəbdən “Scientific American Mind” jurnalı bu durumu izah edən eqoist yeniyetməlik məqaləsini yayınlayıb və belə yeniyetmələrin xüsusiyyətlərini aşağıdakı kimi izah edib: başqasını anlamama, bəyənilmə arzusu və rədd edilmə həssaslığı, özgüvənsizlik ilə hər şeyi edə bilmə fantaziyası, asanlıqla təslim olma, qəzəb partlayışları, özünüqoruma refleksinin itməsi, ifrat cinsəllik, impulsivlik, emosionallıq və aqressivlik. Uşaqlarda və yeniyetmələrdə “skrollinq” - “sürüşdürmə” (sosial media istifadəsi zamanı ekranın tez-tez a sürüşdürülməsi) və ifrat porn izləmə kimi pis vərdişlər də texnologiyanın bizə “hədiyyələrindəndir”.

❑ **“Yeni Müsavat”**

# Restoranlarda iftar süfrəsi reklamı - İlahiyyatçı deyir ki...

## Məşhur obyektlər qiymətləri açıqlayıb, lakin israfçılıq və dəbdəbə dinimizdə bəyənilmir...

**Bakıda restoranların iftar menyuları açıqlanıb. Bir nəfər üçün nəzərdə tutulan iftar menyularının qiymətləri müxtəlifdir. Belə ki, martın 1-dən sonunadək Ramazan ayı boyunca restoranlar üzrə iftar qiymətləri 24-90 manat arasında dəyişir. Bir sıra şəxslər isə bu menyuların Ramazan ayı üçün yüksək olduğunu qeyd edir.**

Qiymətlərdən əlavə, təklif olunan yeməklərin nə dərəcədə halal və oruc açmağa yararlı olması da gündəmdə olan məsələlərdəndir. Azad İstehlakçılar Birliyinin sədri, qida eksperti Eyyub Hüseynov deyib ki, biznes qurumları hazırkı vəziyyətdən istifadə edir və istehlakçı hüquqlarını bu cür qiymət siyasəti ilə pozurlar. Onun fikrincə, Nazirlər Kabineti sözügedən məsələ ilə bağlı müəyyən qərar qəbul etməlidir ki, biznes qurumları tərəfindən istehlakçı ilə belə rəftar olunmasın. Ümumiyyətlə, restoranların iftar süfrəsini reklam etməsi nə dərəcədə qəbul edilən haldır?

Dini mövzular üzrə araşdırmaçı Rəsul Mirhəşimli "Yeni Müsavat"a bildirib ki, Ramazan ayı insanın nəfsi ilə mücadilə etdiyi aydır. Onun sözlərinə görə, bu ayda ibadətin bir qismi günün bəlli saatlarında yemək-içməkdən aralı qalmaqdır: "Lakin anlamalıyıq ki, Ramazan ayı təkcə yemək və içməkdən imtina ayı deyil. Eyni zamanda, günün bir hissəsini ac qalıb, iftarda və sahurda durmadan yemək də deyil. Ramazan orucu insanın bütün əzaları ilə oruclu olmaqdır".

Mirhəşimli hesab edir ki, Ramazan ayının hikmətini dərindən anlaya bilsək, o zaman israf məclisləri də bu qədər genişlənə bilməz: "Hər il restoranların iftar menyülarındakı qiymətlərdə narazılıq yaşanır. İnsanlar bu qiymətlərin bahalığından şikayətlənir. Əgər həmin restoranlar Ramazan ayının başlaması ilə əlaqəli bu qiymətləri qaldırırlarsa, bu hal dini göstəricilər üzrə faiz anlamı kəsb edir. İslam dini baxımından faiz haramdır".

Müsahibimizin fikrincə, oruc tutan bəzi insanlar iftar süfrələrinin dəbdəbəli olmasına üstünlük verirlər: "Ancaq burada əsas sual ortaya çıxır: bu cür iftar süfrələrində israf etmək, zənginlik və dəbdəbəyə meyl etmək həqiqətən də Ramazan ayının hikmətinə və məqsədinə uyğundurmu? İslam dini zəngin və rahat bir həyatın qaydalarını müəyyən edərkən, iftarın sadə və təvazökar bir şəkildə edilməsi, həddindən artıq zənginlik və israfdan uzaq durulması üçün bir yol göstərir. Allah-Təala Qurani-Kərimdə insanlara mal-dövlətlərini düzgün şəkildə istifadə etməyi və yemək-içmək məsələsində israf etməmək kimi tövsiyələr verir. Məsələn, "Şübhəsiz ki, israf edənlər şeytanın qardaşlarıdır" (İsra surəsi, 27-ci ayə) deyə bildirilir. Bu ayə israf etməyin ciddiyyətini vurğulayır və insanları həm fərdi həyatlarında, həm də ictimai həyatlarında bu mövzuda həssas olmağa çağırır".

Mirhəşimli bildirib ki, oruc tutanlar Ramazan ayı boyunca Allah Rəsulu Hz.Məhəmmədin (s), onun səhabələrinin, Əhli-Beytinin (ə) yaşam tərzini göz önünə gətirsinlər: "Bir daha düşünsünlər ki, bütün müsəlmanlara və insanlığa nümunə olan peyğəmbərimiz hansı şərtlər altında, hansı şəraitdə oruc tutub. Peyğəmbərimizin ən sadə süfrəsini gözləri önündən canlandıra bilən müsəlman bu qədər



zəngin iftar süfrələrinə meyl edərək, israfa yuvarlanmaz, həm də gündüz axşama qədər boş qalan mədəsinə iftarda zülm etməz". R.Mirhəşimlinin sözlərinə görə, İslamın təlimlərinə əsasən, Ramazan ayında oruc tutan hər bir şəxs iftarın nə qədər zəngin və bahalı olduğu ilə deyil, Allaha yaxınlaşmaq, nəfsini tərbiyə etmək və başqalarına yardım etmək məqsədini güdməlidir.

Xatırladaq ki, martın 1-dən sonunadək Ramazan ayı boyunca restoranlar üzrə iftar qiymətləri 24-90 manat arasında dəyişir. "Günaydın" restoranının hər iki filialında bir nəfər üçün iftar menyusunun qiyməti 90 manatdır. "Fairmont Baku"nun "Le Bistro" restoranı bir nəfərlik iftar süfrəsini 88 manata təklif edir. "Hilton"un 24-cü mərtəbəsində yerləşən və flaqman restoranı olan "Sky Grill"də bir nəfər üçün iftar qiyməti 60 manatdır. "Hilton"un 1-ci mərtəbəsində yerləşən "Cilantro Restoranı" isə bir nəfərə iftar süfrəsini 49 manata açır. "The Landmark"ın 20-ci mərtəbəsində yerləşən "Caspian Grill Terrace" restoranında bir nəfərə iftar süfrəsi 40 manata təklif olunur. Səməd Vurğun küçəsindəki "Şehrazat" restoranında iftar menyusu adam başına 50 manat təyin olunub və burada əlavə olaraq 10 faiz servishaqqı tətbiq edilir. Ağ şəhərdə yerləşən "Bashkent White City"də iftar qiymətləri iki cür - menyudan asılı olaraq 35-45 manat aralığında dəyişir.

"Dreamland"da iftar açmaq istəyən şəxs 33 manat və üstəgəl 6 faiz servishaqqı ödəməli olacaq. Üzeyir Hacıbəyov küçəsində yerləşən "Mamounia Baku" restoranında iftar qiyməti 29 manat, əlavə olaraq servishaqqı isə 10 faiz təşkil edir. "Fəvvarələr meydanı"ndakı "Fisincan" restoranı iftar süfrəsini müxtəlif cür menyular olmaqla 25, 30 və 35 manata təklif edir.

Eyni ərazidə, yerləşən "Caravan Baku"da isə qiymət 25 manat müəyyənləşib və bununla yanaşı 10 faiz servis haqqı nəzərdə tutulub. Həmçinin burada məşhur "Firuzə" restoranı bir nəfərə iftar süfrəsini 24 manata təqdim edir. "Salam Baku" restoranında iftar menyusu 26 manata təklif olunur. "Neftçilər" metrosu yaxınlığındakı məşhur "Biz-Bizə" restoranında iftar açmaq azı 30 manata başa gələcək. Badamdar qəsəbəsində dağın üzərində dənizə açılan mənzərəyə malik "Luxury Life Restaurant" müqəddəs ayda iftar süfrəsini cəmi 25 manata təklif edir.

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

# Bakıda "yaşıl dalğa" əmri - Şəhəri necə xilas etməli?

## Mütəxəssis şəhərdəki dözülməz tıxaclarla bağlı çıxış yolları təklif etdi

**Bir neçə gündür paytaxtın mərkəzi küçə və prospektlərində axşam saatlarında yaranan nəqliyyat sıxlığının müddəti və sıxlıq olan yolların sayı artıb. Müşahidələr göstərir ki, bu proses martın 3-dən başlayıb və davam edəcəyi ehtimal olunur".**

Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin müraciətində bildirilib. "Təhlillər onu deməyə əsas verir ki, Ramazan ayı ilə əlaqədar bəzi vətəndaşlar şəxsi nəqliyyat vasitələrindən daha çox istifadəyə, xüsusilə də mərkəzi küçə və prospektlərdə yerləşən ictimai iaşə obyektlərində təşkil olunan iftar məclislərində iştirak etməyə üstünlük verirlər. Pik saatlarda yaranan nəqliyyat sıxlığının müddəti bu səbəbdən artmağa başlayır və nəticədə şəhərin digər yollarına da (şəhərə giriş-çıxış yolları) təsir edir", - deyə müraciətdə qeyd olunub.

Mərkəz tərəfindən nəqliyyat intensivliyini artırmaq məqsədilə 38 küçə və prospekt üzrə svetoforlara "yaşıl dalğa" əmri verilib. Zəruri tədbirlərin görülməsi üçün mütəmadi yol polisi əməkdaşları ilə informasiya mübadiləsi aparılıb.

Nəqliyyat sahəsi üzrə ekspert, beynəlxalq dərəcəli təlimçi Adil Nəbiyev mövzunu "Yeni Müsavat"a şərh edərkən qeyd etdi ki, "yaşıl dalğa" əmri tıxacı daha da artırıb: "Hesab edirəm ki, müdaxilə olmasa, nəticə daha yaxşı olar. "Yaşıl dalğa" əmrinin verilməsi bir tərəfdə yolu açırsa, digər tərəfdə hərəkəti iflic edir. Bu müdaxilələr əks-təsir göstərir. Tıxacın qarşısını almaq üçün böyük prospektlərdə reversiv işıqforlardan istifadə etmək olar. Səhər və axşam pik saatlarda bir zolağı əks tərəfə vermək olar. Məsələn, Rusiyada bütün böyük prospektlərdə bu işıqforlardan quraşdırılıb. Meqapolislərdə bu çox yaxşı effekt verir. Amma təəssüf ki, Azərbaycanda ortada işıq dirəkləri olduğu üçün qarşı zolağa çıxmaq mümkün deyil. Bu növ işıqforlar hərəkəti canlı nizamlayıcı olmadan tənzimləyir. Məsələn, Neftçilər prospektində olan işıqforların hamısı 90 saniyə qoyulduğu üçün tıxac yaranır. Ümumiyyətlə, Azərbaycanda işıqforlar düzgün tənzimlənmir. Hətta işıqforları süni intellektlə idarə etmək olar. Canlı tənzimləyicinin müdaxiləsi isə çox zaman əks-təsir göstərir. Qara Qarayev prospektindən Heydər Əliyev prospektinə çıxan yol, Babək prospektinin Moskva prospekti ilə birləşməsi də hər gün bağlanır. Ən çox problem müdaxilə olunan prospektlərdə yaranır. Bir sözlə, müdaxilənin xeyirdən çox, ziyanı var. Hərəkət avtomatik formada tənzimlənməlidir. Demək olar ki, hər sahədə inkişaf olsa da, nəqliyyat sahəsində problemlər bitmir. Sanki tıxac bəzi şəxslərə sərf edir".

A.Nəbiyevin sözlərinə görə, müəyyən edilmiş standartlardan kənara çıxılmamalıdır. Belə ki, işıqforların lazımsız yerlərdə quraşdırılması da ciddi problemlər yaradır: "Bəzi yerlərdə işıqforların çox olması yaxşıdır, tıxac olsa da, qəzaların sayını azaldır. Məsələn, 8 Noyabr prospektində quraşdırılan işıqforlar qəzaların qarşısının alınmasına müsbət təsir göstərib. Amma vaxtını düzgün tənzimləməyəndə bu problem yaradır. Fikrimcə, problemlərin həll olunmamasının əsas səbəblərindən biri də bəzi şəxslərin öz yerində olmamasıdır".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**



# Moody's-dan Azərbaycan haqda nikbin proqnoz - Şərh

## Agentliyə görə, biznes və ev təsərrüfatlarından kreditlərə tələbat artmaqda davam edəcək

**Beynəlxalq reytinq agentliyi Moody's 2025-2026-cı illərdə Azərbaycanda bankların aktivlərinin yüksək keyfiyyətdə, eyni qalacağını proqnozlaşdırır. Agentliyə görə, yaxın 12-18 ay ərzində əhalinin gəlirlərinin artması və bank fəaliyyətinin mühüm hissəsini təşkil edən qeyri-neft sektorunun genişlənməsi ilə əlaqədar Azərbaycan banklarının aktivlərinin keyfiyyəti yüksək səviyyədə qalacaq. Nəticədə biznes və ev təsərrüfatlarından kreditlərə tələbat artmaqda davam edəcək.**




Moody's qeyd edir ki, Azərbaycanda problemli kreditlərin (QPLs) payı 2024-cü ilin sonunda ümumi kreditlərin 2,4 faizi olaraq tarixi minimum səviyyədə qalır - (2023-cü ildəki 2,6 faizə və 2022-ci ildə 3,8 faizə qarşı). Üstəlik, problemli kreditlərin ehtiyatlarla qapadılması səviyyəsi 200 faizi ötür: "Manatın məzənnəsinin sabitliyi və istehlak kreditləri ilə bağlı sərt tənzimləmə tələbləri riskləri azaltmağa kömək edir. Xarici valyutada kreditlərin payı 2024-cü ilin sonuna (2020-ci ildə 30 faizlə müqayisədə) 16 faizə düşüb. Bununla yanaşı, Azərbaycan Mərkəzi Bankı (AMB) kreditləşmənin artımının sürətlənməsinə cavab olaraq 0,5 faizlik (1 mart 2025-ci il tarixindən qüvvəyə minib) əks-siklik bufer tətbiq edir".

Moody's hesab edir ki, Azərbaycanın bank sektoru tənzimləyicinin yeni tələblərinə tez uyğunlaşa biləcək.

Qeyd edək ki, digər agentliklərin Azərbaycanın bank sektoruna dair proqnozları da diqqəti cəlb edir. Belə ki, "S&P Global Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycanda bankların kredit portfelinin 2025-ci ildə təxminən 15 faiz artacağını proqnozlaşdırıb. Agentlik ekspertləri qeyd edirlər ki, Azərbaycanda kreditlərin artımı neft qiymətləri ilə əlaqəlidir. 2021-2024-cü illərdə kreditlər 18 faiz artıb. Kredit portfelinin ümumi artımı əsasən istehlak kreditlərinin yüksək artım tempi hesabına baş verib: "Azərbaycanda özəl sektorun borc yükü region ölkələr arasında ən aşağı səviyyədə qalır, burada ev təsərrüfatlarının borcunun ÜDM-ə nisbəti 14 faiz, korporativ borcun ÜDM-ə nisbəti isə 10 faizdir. 2025-ci il martın 1-dən etibarən, Mərkəzi Bank əlavə 0.5 faiz əks-tsiklik kapital buferi tələb edəcək, çünki kredit boşluğu göstəricisi (kreditin ÜDM-ə nisbətinin uzunmüddətli trenddən fərqi) 2 faizdən çoxdur".

Həmçinin "S&P Global Ratings" Azərbaycanın bank sektorunun risk qiymətləndirməsini (BICRA) yaxşılaşdırıb. Agentlik Azərbaycan bank sektoru üçün sənaye risk qiymətləndirməsini "sabit"dən "müsbət"ə dəyişdirib: "Müsbət sənaye risk tendensiyası 2024-2026-cı illər üçün Maliyyə Sektorunun İnkişafı Strategiyası çərçivəsində son iki il ərzində ölkədə maliyyə institutlarının tənzimlənməsi və nəzarətinin müasirləşdirilməsi təşəbbüslərini əhatə edir. Bu təşəbbüslər səmərəli həyata keçirilərsə, düşünürük ki, Azərbaycanda banklar üçün tənzimləmə və nəzarət daha da gücləndirilə bilər. Bununla belə, biz ölkədəki tənzimləmə və nəzarət çərçivəsini beynəlxalq standartlardan daha zəif hesab etməyə davam edirik".

Qeyd edək ki, BICRA (Banking Industry Country Risk Assessments) "S&P Global Ratings" agentliyinin bank sənayesi ölkə risk qiymətləndirməsidir. Qiymətləndirmə üzrə ən yüksək bal 1, ən aşağı bal isə 10-dur. S&P sonuncu dəfə 2023-cü ilin dekabr ayında Azərbaycanın bank sektoru ilə bağlı risklərin qiymətləndirilməsini "9"dan "8"ə yaxşılaşdırıb.

"Fitch Ratings" beynəlxalq reytinq agentliyinin MDB+ və Yaxın Şərq bankları üzrə direktor müavini Maksim Maliutinin APA-ya dediyinə görə, Azərbaycan bank sektorunda 2025-2026-cı illər üzrə izlənilməli olan iki əsas göstərici var və bunlardan birincisi neft qiymətlərinin dinamikasıdır: "Azərbaycanın iqtisadi artımı hələ də əsasən neft və qaz ixracından asılıdır. Bu isə o deməkdir ki, bu sektorun göstəriciləri yerli bankların biznes imkanlarına birbaşa təsir edə bilər".

Maksim Maliutin hesab edir ki, ikinci göstərici pərakəndə kreditləşmənin davamlı artımıdır. Belə ki, kreditləşmə səviyyəsinin hələ də nisbətən aşağı olması gələcək iki il ərzində artım üçün müəyyən potensial yaradır. Bununla belə, əhalinin artan borc yükü orta müddətli perspektivdə yerli banklar üçün kredit riskini artıra bilər və bu da qeyri-işlək kreditlərin (NPL) yüksəlməsinə səbəb ola bilər: "Bununla belə, biz inanırıq ki, bu potensial pisləşmə idarəolunan olacaq və Azərbaycan Mərkəzi Bankı pərakəndə kreditləşmə sektorunun fəaliyyətini nəzarətdə saxlayacaq, eləcə də həddindən artıq artımın qarşısını almaq üçün effektiv tədbirlər görəcək. Azərbaycan bank sektoru üzrə proqnozumuz neytraldır. Yəni biz gözləyirik ki, əsas maliyyə göstəriciləri bu il stabil qalacaq".

O bildirib ki, son illərdə Azərbaycan bank sektorunun maliyyə profili əhəmiyyətli dərəcədə yaxşılaşıb. Bu, 2024-cü ilin oktyabrında yerli fəaliyyət mühitinin reytinqinin "B+"dan "BB-"a dəyişməsi ilə təsdiqlənib. Bu dəyişikliyin əsas səbəbi əvvəllər bank sektoruna mənfi təsir edən köhnə aktiv keyfiyyəti risklərinin azalmasıdır: "2019-cu ildən etibarən hökumət zəif bankları bazardan təmizləmək üçün addımlar atıb. Bununla yanaşı, Azərbaycanın biznes mühiti güclənib, yerli banklar isə uzunmüddətli və böyük korporativ kreditlərə olan marağını azaldıb. Bunun əvəzinə, onlar daha çox pərakəndə kreditləşməyə üstünlük verirlər. Bu isə daha az riskli və istehlakın aşağı olmasına görə daha gəlirlidir. 2024-cü ilin sonuna pərakəndə kreditlərin sektordakı payı 60 faizə çatıb. Müqayisə üçün, 2018-ci ilin sonunda bu göstərici cəmi 40 faiz idi. Beləliklə, son bir neçə ildə bu sahədə əhəmiyyətli artım baş verib".

Direktor müavini qeyd edib ki, bank sektorunun əsas kapital adekvatlığı göstəricisi 2020-ci ildən bəri bir qədər azalıb. Bunun əsas səbəbi pərakəndə kreditlərin artmasıdır, çünki bu növ kreditlər üçün risk çəki dərəcəsi daha yüksəkdir. Buna baxmayaraq, göstərici hələ də 5 faizlik minimum tənzimləyici həddən xeyli yuxarıdır və 2025-ci ildə də stabil qalacağı gözlənilir: "Likvidlik baxımından, sektor sabit vəziyyətdədir. 2024-cü ilin sonuna sektorun kredit portfeli və aktivləri arasında balanslı nisbət qorunub. Yenidən maliyyələşdirmə riskləri isə əsasən müştəri depozitlərinə (xüsusilə cari hesablara) əsaslanan maliyyələşdirmə strukturu ilə azaldılır".

Mərkəzi Bankın statistikasından aydın olur ki, Azərbaycanın bank sektoru bu ilin yanvar ayında 71 milyon manat xalis mənfəət əldə edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 28,7 faiz azdır. Ay ərzində bankların əməliyyat gəlirləri 543,8 milyon manat (ötən ilin eyni dövrünə nisbətən 17,5 faiz çox), əməliyyat xərcləri 395,5 milyon manat (26,9 faiz çox), xüsusi ehtiyatlara ayırmaları 53,7 milyon manat (83,3 faiz çox), mənfəət vergisi ödəmələri isə 23,7 milyon manat (8,2 faiz çox) təşkil edib.

Fevralın 1-nə Azərbaycanın bank sektorunun aktivləri 53 milyard 90,7 milyon manat təşkil edib. Bu, ötən il fevralın 1-i ilə müqayisədə 7,7 % çoxdur. Bankların aktivlərinin 27 milyard 514,7 milyon manatını müştərilərə verilmiş xalis kreditlər təşkil edib. Son 1 ildə sektorun kredit portfeli 23,9 faiz böyüyüb, kreditlərin aktivlərdəki payı isə 45 faizdən 51,8 faizə qalxıb.

Hesabat dövründə bank sektorunun öhdəlikləri 7,55 faiz artaraq 46 milyard 402,3 milyon manata, o cümlədən depozit portfeli 5,7 faiz artaraq 36 milyard 961 milyon manata çatıb. Bunun 14 milyard 385,4 milyon manatı fiziki, 22 milyard 575,5 milyon manatı isə hüquqi şəxslərin depozitləridir. İl ərzində əhalinin banklardakı vəsaitləri 12,1 faiz, şirkətlərin banklardakı vəsaitləri isə 1,9 faiz artıb.

İqtisadçı-ekspert Rəşad Həsənovun "Yeni Müsavat"a dediyinə görə, beynəlxalq agentliklər ötən ilin müsbət yekunları əsasında proqnozlaşdırma aparıblar: "Həmişə ilin əvvəlində proqnozlar əvvəlki ilin nəticələri əsasında tərtib olunur. Ötən il bank sektorunda tənzimlənmə çərçivəsinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən işlər, müəyyən olunmuş strategiya çərçivəsində nəzərdə tutulmuş tədbirlər bank sektorunun güclənməsi üçün müəyyən əsaslar formalaşdırır. Qeyd etmək lazımdır ki, həqiqətən də son ilyarım ərzində bank sektorunda tənzimlənmə çərçivəsinin təkmilləşdirilməsi, prudensial tələblərin diferensiallaşdırılması, şaxələndirilməsi, hesabatlığın strukturu ilə bağlı tələblərin təkmilləşdirilməsi, 2023-cü ildə bank sektorunda olan zəif bəndlərin sistemdən kənarlaşdırılması bank sektorunun göstəricilərini müsbətə doğru ciddi şəkildə dəyişib. Bu həm toksik aktivlərin həcmində, həm izafi likvidliyin bank sektoru arasında paylanmasında, həmçinin ehtiyat normalarının səviyyəsində özünü göstərir. Artıq hesabatlıqla bağlı pozitivlik də müşahidə olunmaqdadır. Mərkəzi Bank müxtəlif mənbələrdən istifadə etməklə bank sektorundakı bu və ya digər risk yaradan amilləri vaxtında aşkarlaya və onların aradan qaldırılması üçün addımlar ata bilir".

Ekspertə görə, xarici öhdəliklərin azalması, eyni zamanda dollarlaşma meyillərinin zəifləməsi də bank sektorunda riskləri neytrallaşdıran amildir: "Təbii ki, neft amili iqtisadiyyatın bütün sahələrində olduğu kimi, bank sektorunda da ciddi təsirini saxlayır. Lakin hazırda və bundan sonrakı dövrdə geosiyasi amillərin təsiri məsələsi önə çıxmaqdadır. Hələlik beynəlxalq agentliklərin qiymətləndirmələrinə geosiyasi risklər, ticarət müharibələrinin qlobal iqtisadiyyata, xammal bazarlarına nüfuzu kimi amillərin təsirləri daxil edilməyib. Azərbaycan iqtisadiyyatı üçün burada təhlükə iki istiqamətlidir: Birincisi, idxal məhsullarının bahalaşması nəticəsində Azərbaycanda qiymətlərin bahalaşması. İkincisi, ABŞ prezidenti Donald Trampın tətbiq etdiyi rüsumların daxildə inflyasiyanı artırmasını önləmək üçün neft qiymətlərini ucuzlaşdırmaq siyasəti. Bu siyasət Azərbaycanın gəlirlərini kəskin azaltmaqla fiskal daralmaya gətirib çıxara bilər. Daxili iqtisadiyyatın inkişaf meylləri daha çox büdcə xərcləmələrinin dinamikasına bağlıdır: neft gəlirlərinin azalması fonunda azad olunan ərazilərdəki bərpa prosesinə ayrılan vəsaitlər azalarsa, bu, bir sıra problemlərə gətirib çıxara bilər. Problem bütün sektorları, o cümlədən bank sektorunda əks olunacaq. Lakin düşünürəm ki, bank sektoru belə vəziyyətə 2015-2016-cı ildəkindən daha yaxşı hazırlıqlıdır".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 44 (8654) 8 mart 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# “Aliment nə qədərdir ki, bir qadın ailəsini dağıtsın?”

**Deputat Razi Nurullayevin Milli Məclisin İnsan hüquqları komitəsinin iclasında “Bu gün boşanmaların artmasının səbəbi qadınların sərbəst qalmaq və aliment almaq istəklərinin olmasıdır” deməsi geniş müzakirəyə yol açdı. Deputat qeyd edib ki, ona müraciətlərin 10/8-də boşanmaq istəyən qadınlar olur: “Onlar deyir ki, mən boşanaraq aliment almalıyam. Düşünürəm ki, aliment fondu yaradılmalıdır və bundan sui-istifadə edənlər qanunvericiliklə cəzalandırılmalıdır”. Bu fikirlər sosial şəbəkələrdə birmənalı qarşılanmayıb. Deputatın sözlərini tənqid edənlər bildiriblər ki, boşanma səbəbləri daha mürəkkəb və çoxşaxəlidir, yalnız qadınların qərarlarına bağlamaq doğru deyil. Onlar qadınların boşanma qərarının arxasında psixoloji, iqtisadi və sosial faktorların dayandığını vurğulayıblar.**

## Novella Cəfəroğlu: “Biz boşanmaların əsl səbəblərini araşdırmalıyıq”



Digər tərəfdən, bəzi insanlar deputatın mövqeyinə haqq qazandıraraq, boşanma hallarının artmasının müəyyən sosial problemlər yaratdığını bildiriblər. Onlar hesab edirlər ki, ailə institutunun qorunması üçün bu məsələlər diqqətlə araşdırılmalı və müvafiq addımlar atılmalıdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin baş məsləhətçisi Səmra Əliyeva deyib ki, son illərdə nikahın pozulması iddiası ilə məhkəməyə müraciət edənlərin 70 faizindən çoxu xasiyyətlərinin uyğun olmamasını əsas gətiriblər. Səmra Əliyeva qeyd edib ki, boşanmalara daha çox qadınların səbəb olması fikri isə həqiqəti əks etdirmir:

Məsələ ilə bağlı Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu “Yeni Müsavat”a danışıb:

“Son vaxtlar Milli Məclisdə qadınlar haqqında neqativ fikirlər səsləndirilir. Biz çox istərdik ki, bu məsələlərə bir az daha həssas yanaşılsın və geniş araşdırmalar aparılsın. Bizim təşkilat 30 ildir fəaliyyət göstərir, bu illər ərzində minlərlə qadın bizə müraciət edib. Onların çoxu aliment ala bilməyən və uşağını görə bilməyən qadınlardır. Təsəvvür edin, bəzi kişilər aliment ödəməmək üçün məhkəməyə müraciət edir və bildirir ki, qadının işi, evi, yaşayış şəraiti yoxdur, ona görə də uşaqlar onun yanında qala bilməz. Nəticədə uşaqlar anadan alınır. Bu hallar getdikcə artır. Milli Məclisdə müzakirələr aparılacaqsa, əsas sual bu olmalıdır: Qadınlar niyə boşanmağa məcbur qalır?

Həqiqətənmi bir qadın yaxşı həyatını, ailəsini qoyub yalnız aliment almaq üçün boşanır? Qadınlar zorakılığa məruz qaldıqları üçün, ailədaxili problemlər səbəbilə boşanır, alimentə görə yox! Bəzən deyirlər ki, “qadınlar alimentə görə boşanır”. Aliment nə qədərdir ki, bir qadın ailəsini dağıtsın?

Hazırda aliment 235 manatdır. Yəni düşünürlər ki, 235 manata görə qadınlarımız həyatlarını puç edib, ailələrini dağıdırlar? Üstəlik, kişilər indi aliment ödəyə bilirlər? Nə qədər kişi hazırda aliment ödəmədiyinə görə axtarışdadır və ya inzibati qaydada həbs olunub, cinayət məsuliyyətinə cəlb edilib. Beləliklə, biz bu məsələlərə ciddi yanaşmalı, boşanmaların əsl səbəblərini araşdırmalıyıq".

Sosioloq Üzeyir Əfəndiyev isə “Yeni Müsavat”a açıqlamasında bunları deyib: “Hesab etmirəm ki, qadınlar məhz aliment almaq üçün boşanırlar. Bu, əsas səbəb deyil. Fikrimcə, bu, boşanmalara çox kiçik yanaşmadır. Boşanmaların daha dərin və ciddi səbəbləri var. Bunlardan biri odur ki, Azərbaycan cəmiyyəti düşüncə transformasiyası yaşayır, xüsusilə də qadınlar.

Məlum olduğu kimi, ənənəvi cəmiyyətlərdə qadınlar həmişə ictimai nəzarət altında olduqlarına görə boşanma ailə dramı, ailə faciəsi kimi qiymətləndirilirdi. Nəticədə, cəmiyyət tərəfindən həm qadınların, həm də kişilərin boşanmasına mənfi münasibət sərgilənirdi. Lakin düşüncə tərzi dəyişməyə başlayandan, qlobal dünyaya açılım baş verəndən sonra Azərbaycan insanı anladı ki, boşanma heç də ailə faciəsi deyil.

Bu baxımdan, artıq qadınlar köhnə qaydalarla yaşamaq istəmirlər və kişilər də onları əvvəlki kimi idarə edə bilmirlər. Qadınlar daha çox şəxsi azadlıqlarına və öz istəklərinə önəm verirlər. Bəzən bir-iki uşaq dünyaya gətirdikdən sonra rahatlıqla boşanmağa qərar verirlər və həyatlarını müstəqil şəkildə davam etdirmək istəyirlər.

Bunun başqa bir səbəbi də var. Əvvəllər qadınlar əsasən iqtisadi cəhətdən asılı idilər və evdar qadın obrazında çıxış edirdilər. Bu gün isə qadınlar iqtisadi cəhətdən fəaldırlar, öz ayaqları üstündə dura bilirlər. Onlar düşünürlər ki, köhnə fikirli, stereotip düşüncəli kişilərin kaprizlərinə dözmək məcburiyyətində deyillər. Nəticədə, bir-iki uşaq olduqdan sonra ayrılaraq öz həyatlarına davam edirlər, çünki artıq özlərini təmin etmək imkanına sahibdirlər.

Amma aliment məbləği elə bir rəqəm deyil ki, qadınlar ona görə boşansınlar.”

Azərbaycan Respublìkasının Medìanın İnkìşafı Agentlìyìnìn malìyyəsì əsasında nəşr olunur. Yazını hazırladı: Xalìdə GƏRAY

## Valideynlərini itirmiş uşaqlarla bağlı mühüm dəyişiklik



**Valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş uşaqların təhsil üzrə təminatları dəyişir. Bu, Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.**

Qüvvədə olan qanuna əsasən, valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ümumi təhsil, peşə və orta ixtisas təhsili, ali təhsil müəssisələrini bitirdikləri zaman müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi qaydada mövsümi paltar və ayaqqabı, habelə respublika üzrə orta əmək haqqının iki mislindən az olmamaqla birdəfəlik pul vəsaiti ilə təmin olunurlar.

Layihəyə əsasən, təminat müəyyənləşdirilən məbləğdə birdəfəlik müavinət formasında olacaq. Başqa sözlə, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrini bitirdikləri zaman onlara müvafiq təhsil müəssisəsi tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə birdəfəlik müavinət ödəniləcək.

Qeyd edilib ki, birdəfəlik pul vəsaitinin ödənilməsi zamanı respublika üzrə orta əmək haqqının hansı dövr üçün hesablanması qeyd edilməyib. Təcrübədən məlum olduğu kimi orta əmək haqqı aylar və illər üzrə dəyişir. Eyni zamanda mövcud vəziyyətdə nəzərdə tutulmuş normativlər üzrə paltar və ayaqqabıların sözügedən kateqoriyadan olan şəxslərin tələbatına, bunların əvəzinə verilən pul kompensasiyasının isə qeyd olunan mövsümi geyim məhsullarının orta bazar qiymətinə adekvat olmaması bu təminat növlərinin praktiki cəhətdən aktual olmamasını şərtləndirir.

Qeyd olunanlara əsasən, daha effektiv sosial təminat prinsipinin tətbiq edilməsi, qanunvericilikdə olan qeyri-müəyyənliyin aradan qaldırılması, birdəfəlik pul vəsaitinin konkret məbləğdə ödənilməsi, bununla da, vətəndaş məmnunluğunun artırılması məqsədilə qanunda müvafiq dəyişiklik edilməsi ilə bağlı sözügedən layihə hazırlanıb. Qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.

## Vəfat etmiş şəxsin pensiyasını onlar ala bilər

**Vətəndaş illərlə işləyir və bir gün pensiya yaşına çataraq sığorta hesabında yığılan pensiya kapitalından istifadə edəcəyini gözləyir. Lakin bəzən tale elə gətirir ki, insan pensiya yaşına çata bilmədən dünyadan köçür. Maraqlıdır, bu halda pensiya kapitalının aqibəti necə olur?**



Qanunvericiliyə görə, şəxsin hesabında toplanan pensiya kapitalı o, dünyasını dəyişdiyi halda, ailə üzvlərinin sosial təminatı üçün əsas olaraq istifadə olunur. Belə ki, vəfat edən şəxsin əmək qabiliyyəti olmayan ailə üzvlərinin hər birinə düşən ailə başçısını itirməyə görə pensiyanın məbləği pensiya ödənişi müddətinin ayları, sığorta davamiyyəti əmsalı ilə yanaşı, pensiya kapitalı əsasında da aparılır. Ailə üzvlərinə düşən ailə başçısını itirməyə görə pensiyasının ümumi məbləği əmək pensiyasının minimum məbləğindən (320 manat) aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir.

Qeyd etmək lazımdır ki, ailə başçısını itirməyə görə pensiya ailə başçısının ölüm gününədək ümumi sığorta stajı (Məcburi dövlət sosial sığorta haqqı ödənilən əmək fəaliyyəti dövrlərinin ümumi müddəti) 5 ildən az olmamaq şərtilə, əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir.

Vəfat etmiş ailə başçısının öhdəsində olan aşağıdakı ailə üzvlərinin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ var:

- Vəfat etmiş şəxslərin övladları:

- 18 yaşına çatmamış;

- 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan şəxs;

- təhsil müəssisələrinin əyani şöbəsində təhsil alanlar, lakin ən çoxu 23 yaşına çatanadək;

- Ata, ana, ər, arvad pensiya yaşına çatmışdırsa, yaxud orqanizmin funksiyalarının 61-80 faiz və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsdirsə;

- Yaşından və əmək qabiliyyətindən asılı olmayaraq valideynlərdən biri və ya ər (arvad), yaxud baba, nənə, qardaş, bacı vəfat etmiş ailə başçısının 8 yaşına çatmamış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə baxırsa və işləmirsə.

Ailə üzvünə düşən pensiya məbləği dövlət qulluqçularına verilən ömürlük, həmçinin əlilliyə və ailə başçısını itirməyə görə sosial müavinətlərin məbləğindən az olduqda, həmin ailə üzvünün qeyd olunan müavinətləri almaq hüququ olduğu halda, o, ailə başçısını itirməyə görə pensiya əvəzinə müvafiq sosial müavinəti almaq hüququna malikdir.

# Amerikanın Ukraynaya o dəhşətli pisliyi...

## Kəşfiyyat məlumatlarının Kiyevə ötürülməsinin dayandırılması hansı fəsadlar törədəcək? - iki fərqli rəy

**ABŞ kəşfiyyat məlumatlarının Kiyev hakimiyyətinə ötürülməsini müvəqqəti dayandırıb. Lakin bu barədə müttəfiqlərini əvvəlcədən xəbərdar etməyib. "Blumberq"ə açıqlanmasında avropalı rəsmilərdən biri deyib ki, Vaşinqtonun müttəfiqləri ABŞ-ın Kiyevə ötürdüyü informasiya çatışmazlığını kompensasiya etməkdə çətinlik çəkə bilər.**



Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) direktoru Con Retkliff isə bildirib ki, ABŞ Ukraynaya gələcəkdə kəşfiyyat məlumatlarının verilməsini və hərbi yardımı bərpa edəcək. "Donald Tramp Vladimir Zelenskinin sülh yolu ilə nizamlanmaya sadiq olub-olmadığına dair şübhə duyurdu. Buna görə də fasilə verilməsinin lazım olduğunu söylədi. Zelenski sülhə hazır olduğunu və bunun Donald Trampın rəhbərliyi altında əldə edilməsini istədiyini dedi. Bu səbəbdən düşünürəm ki, kəşfiyyat və hərbi istiqamətdə bu fasilə aradan qaldırılacaq", - MKİ şefi vurğulayıb. Bəs kəşfiyyat məlumatlarının ötürülməsinin dayandırılması Ukrayna ordusunun döyüş qabiliyyətinə necə təsir edə bilər?

Siyasi şərhçi Heydər Oğuz "Yeni Müsavat"a deyib ki, Tramp hakimiyyətinin bu basqıları həqiqətən də Kiyev üçün ölümcül nəticələrə hesablanmış addımlardır: "Çünki Ukrayna məhz bu silah və kəşfiyyat məlumatları nəticəsində Rusiyaya qarşı dirənə bilir. Onların da kəsilməsi Ukraynanı tamamilə məğlubiyyətə sürükləmək deməkdir. Bununla belə, ABŞ-ın bu dəstəyi tam anlamı ilə əvəzedilməz də deyil. Avropa ölkələri qarşılarına ciddi məqsəd qoysalar və öz güclərini birləşdirsələr, qısa müddətdən sonra rahatlıqla əvəz edə bilərlər. Zira bu zamanadək təkcə ABŞ-ın CIA-sı yox, onunla yanaşı Böyük Britaniyanın MI6-sı da Ukraynanın kəşfiyyat məlumatları ilə bilgiləndirilməsində müstəsna rol oynayıb. Hətta deyərdim ki, bir çox zamanlarda MI6-nın xidmətləri CIA-dan daha əhəmiyyətli olub. Ona Fransa, Almaniya və İtaliya kimi Avropanın güclü dövlətlərinin kəşfiyyat orqanları dəstək versələr, hesab edirəm ki, Ukrayna bu əngəli də aşar. Amma burada bir sual ortaya çıxır: Avropanın kəşfiyyat orqanları bu fədakarlığa qatlanarlarmı?"

Ekspertə görə, ilk baxışdan belə görünür ki, Avropa ölkələri Ukraynanın təhlükəsizliyinə çox ciddi yanaşır, ona qarşı yönələn təhdidləri öz milli məsələləri kimi qəbul edirlər: "Hətta Ukraynaya öz ordu birliklərini göndərmək barədə də düşünürlər. Əgər bütün bu deyilənlər sözdə qalmasa, Avropa dövlətləri Ukraynaya lazımi dəstək versələr, Kiyevin müdafiə sahəsində heç bir problemi qalmaz. Amma məsələ burasındadır ki, Ukrayna bu sahədə də Avropa ölkələrinə haqlı olaraq tam bel bağlaya bilmir. Çünki Avropa deyəndə rifaha alışmış, hərbi sahədən çox, sosial təminat məsələsinə daha çox vəsait ayıran dövlətlər ağla gəlir. Onların yenidən müharibə rejiminə keçməsi o qədər də asan deyil. Bunun üçün Avropa xalqı Ukrayna savaşını özləri üçün real təhdid olaraq görməli, demokratik dəyərləri ən azı qismən məhdudlaşdırmalı, əhalinin sosial vəziyyətini yaxşılaşdıran tədbirlərdən getdikcə geri çəkilməlidir. Ortalama yaşı 45-i keçən, hər il daha çox qocalan Avropa xalqının öz haqlarından asanlıqla imtina edəcəyini sanmıram. Ən əsası isə Avropa insanı yaşlandıqca döyüş əzmini də itirir, nəyin bahasına olursa olsun müharibədən yayınmağa çalışır. Üstəlik, bu müharibədən qaçmaq ənənəsi yeni yaranmış hal da deyil. II Dünya müharibəsi dövründə fransızlar almanlara qarşı vuruşmaq istəmədikləri üçün faşistlər cəmi 43 gün ərzində Fransanın hər tərəfini aldılar. O dövrdən indiyədək 80 il keçir və Avropa ölkələri getdikcə daha çox öz rifahını düşünür. Zənnimcə, Ukrayna qarşısında ən çətin aşırım avropalıların rifahı düşkünlüyü və müharibə əleyhdarlığıdır".

Siyasi şərhçi Azər Hüseynov isə deyib ki, Ukraynanın son 10 ili, əslində, Qərbin geosiyasi layihələrinin təsirini və onların nəticələrini açıq şəkildə nümayiş etdirir: "Hərçənd ki, 2014-cü ildə başlayan proseslər Ukraynanı Rusiyadan uzaqlaşdırmaq və onu Qərb orbitinə daxil etmək məqsədi daşıyırdı, nəticədə ölkə parçalanma, müharibə və iqtisadi çöküşlə üzləşdi. Zelenski isə məhz bu proseslərin içində "Xalqın Xidmətçisi" adı ilə siyasi səhnəyə daxil oldu. Ondan öncəki prezidentlər - Viktor Yuşşenko, Viktor Yanukoviç və Petro Poroşenko - Ukraynanın siyasi xəttində Qərbə meyilli olsalar da, Moskva ilə tamamilə açıq qarşıdurmaya getməkdən çəkinirdilər. Hətta Qərbyönümlü Yuşşenko belə, Rusiya ilə müəyyən tarazlığı saxlamağa çalışırdı. Lakin Zelenski bu ənənəni qırdı və açıq şəkildə anti-Rusiya kursu götürdü. Bu, Ukrayna üçün fəlakətli nəticələr doğurdu: 2014-cü ildə Krımın itirilməsi, Donbasdakı separatçı hərəkatların güclənməsi, 2022-ci ildə isə Rusiyanın tammiqyaslı işğalına məruz qalması.

Bu gün isə artıq Ukraynanın ərazilərinin təxminən 30 faizi faktiki olaraq Rusiyanın nəzarətindədir. Separatçılıq problemi ortadan qaldırılmadı, əksinə, ölkə fiziki olaraq parçalandı. Bütün bunlar isə Zelenskinin siyasi lider kimi səhvlərini və Qərbin onun üzərində apardığı uğursuz eksperimentləri göstərir. Zelenskinin əsas problemi ondan ibarətdir ki, o, tamamilə Qərbin bir layihəsi kimi formalaşdı və onun siyasi varlığı Qərbin dəstəyindən asılı idi. Lakin ABŞ və Avropa İttifaqının Ukraynaya olan yanaşması dəyişməyə başlayıb".

Siyasi şərhçi deyib ki, Trampın qayıdışı Zelenski üçün ciddi siqnal oldu: "Tramp hər zaman xarizmatik, razılaşmağa meyilli liderlərlə işləməyi üstün tutur. Zelenski isə onun üçün belə bir fiqur deyil. Trampın onu son görüşdə demək olar ki, aşağılaması bu siyasət dəyişikliyinin bariz nümunəsidir. ABŞ Ukraynaya kəşfiyyat məlumatlarının ötürülməsini dayandıraraq açıq şəkildə mesaj verdi. Bu, Ukraynanın döyüş qabiliyyətini zəiflədə bilər və Rusiyanın daha sürətli irəliləməsinə yol aça bilər. "Politico"nun məlumatına görə, Trampın komandası artıq Zelenskini əvəzləmək üçün alternativ fiqurlarla danışıqlar aparır. Bunların arasında keçmiş baş nazir Yuliya Timoşenko və eks-prezident Petro Poroşenko da var".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**



# Tramp Zelenskini devirir? - gizli görüşün detalları...

**"Prezident Zelenskinin açıqladığı kimi, Ukrayna Prezident Trampın güclü rəhbərliyi altında müharibəyə son qoymaq üçün danışıqlara hazırdır. Batkivşina komandası ədalətli sülhün mümkün qədər tez təmin olunmasına kömək etməyə qadir olan bütün müttəfiqlərlə danışıqlar aparır". "Yeni Müsavat" xəbər verir ki, bunu Ukraynanın keçmiş baş naziri, Batkivşina Partiyasının sədri Yuliya Timoşenko Trampın adamları ilə gizli görüş keçirməsi barədə yayılan məlumatlara münasibət bildirərkən deyib.**

Siyasətçi bildirib ki, hazırda Ukraynada hər hansı seçkinin keçirilməsindən söhbət belə gedə bilməz. Ölkənin keçmiş prezidenti, Avropa Həmrəyliyi Partiyasının sədri Pyotr Poroşenko da məlum görüşdə iştirak etdiyini təsdiqləyib. O, Ukraynaya ikipartiyalı dəstəyi saxlamaq üçün amerikalı tərəfdaşlarla açıq və şəffaf işlədiyini bildirib. Poroşenko da partiyasının müharibə vaxtı ölkədə seçkilərin keçirilməsinə qarşı çıxdığını deyib. Qeyd edək ki, "Politiko" nəşri ABŞ Prezidenti Donald Trampın yaxın çevrəsinin yüksək vəzifəli şəxslərinin Ukrayna Prezidenti Vladimir Zelenskinin opponentləri ilə gizli danışıqlar apardığını, görüşdə Yuliya Timoşenko və Pyotr Poroşenkonun partiyasının nümayəndələrinin də iştirak etdiyini yazmışdı. Bəs, Trampın emissarlarının danışıqlar apardığı müxalif qüvvələrin xalqın dəstəyini almaq şansı, Zelenskidən çox səs toplmaq üçün yetərli nüfuzları varmı?

Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirdi ki, Zelenskinin nüfuzu bir qədər aşağı düşmüşdü, ancaq hazırkı vəziyyətdə belə, Timoşenko, Poroşenko kimi fiqurlardan daha çox reytinqə sahibdir: "Son rəy sorğuları isə göstərir ki, Oval kabinetdə Tramp və dəstəsinin Zelenskinin üzərinə məlum hücumu, Ukrayna liderinin onların qarşısından qaçmaması onun Ukrayna cəmiyyətində reytini artırıb. Ona görə də Zelenski prezidentlik yarışı keçirilsə, lider olaraq qalır. Ağ Evdəki qalmaqaldan sonra Britaniyanın "Survation" sosial tədqiqat agentliyinin keçirdiyi sorğuda respondentlərin 44 faizi də Zelenskini dəstəkləyəcəyini bildiriblər. Trampın adamlarının danışıq apardığı deyilən qüvvələrin nüfuzu Zelenskidən qat-qat aşağıdır. Ona görə də ABŞ-nin o şəxslərə etimad göstərəcəyi ehtimalı çox aşağıdır. Timoşenko və Poroşenko artıq işlənmiş fiqurlardır. Onları yenidən Ukraynanın başına gətirməzlər. Eks-prezident Poroşenkonu cəmi 10% dəstəkləyib. Keçmiş baş nazir Timoşenko cəmi 5,7 faizin dəstəyini qazanıb".

Politoloq hesab edir ki, Zelenskinin yerinə nisbətən şanslı namizəd quru qoşunlarının keçmiş komandanı, hazırda Ukraynanın Böyük Britaniyadakı səfiri işləyən Valeri Zalujnıdır: "Ukrayna cəmiyyətində bu şəxsin nüfuzu var. Anacaq rəy sorğularına görə bu gün üçün hətta Zalujnı Zelenskidən 20 faiz geri qalır. Zalujnının önə keçib-keçməyəcəyi Zelenskinin qarşıdakı zamanda fəaliyyətindən, Ukrayna müharibəsində proseslərin gedişatından asılıdır. Trampın məhz Zalujnını dəstəkləyəcəyi də sual altındadır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 44 (8654) 8 mart 2025

Mart

## Bunları bilirsinizmi?

* Gün ərzində kofeni 1 dəfədən artıq içməyin.
* Dərmanı soyuq su ilə içməyin.
* Axşam saat 5-dən sonra yemək yeməyin.
* Yağlı yeməyi çox az qəbul edin.
* Suyu daha çox səhər, daha az axşam için.
* Yüklənən mobil telefondan uzaq durun.
* Ən yaxşı yuxu vaxtı - axşam saat 10-dan səhər 6-ya kimidir.
* Dərman içəndən sonra bir muddət uzanmayın.
* Telefonun enerjisi 1 və ya 2 xətt qalıbsa, ondan istifadə etməyin. Çünki, bu zaman telefonla danışanda radiasiya 1000 dəfə artıq təsir göstərir.
* Sizə istidirsə, dirsəklərinizi soyuq suya salın.
* Ayaqlarınız yorulmuşsa, sərin su ilə yuyun, sonra dabanlarınıza krem çəkin və dabandan dizə qədər masaj edin.
* Su çox içməyin - daha çox tərləyəcəksiniz, isti çay, ya da meyvə şirəsi susuzluğunuzu daha yaxşı yatırar.



## İnsan beyninin hüceyrələri ilə işləyən kompüter yaradıldı

**Avstraliyanın Melburn şəhərində yerləşən "Cortical Labs" şirkəti laboratoriyada yetişdirilən insan beyninin neyronları ilə işləyən ilk bioloji kompüterini - CL1-i təqdim edib. Oxu.Az-ın "ABC"yə istinadla verdiyi məlumata görə, bu barədə "Cortical Labs"in elmi rəhbəri Brett Kaqan açıqlama verib. Onun sözlərinə görə, yüzminlərlə süni şəkildə yetişdirilən neyron qarşılıqlı əlaqə qurma və öyrənmə qabiliyyətinə malikdir. Kaqan "İnsan neyronlarına verilə biləcək tapşırıqları təsəvvür etmək belə çətindir, çünki çox fərqli variantlar mövcuddur. Bu, xəstəliklərin modelləşdirilməsi, dərmanların sınaqdan keçirilməsi və süni intellektin yaradılması kimi bir çox sahəni əhatə edə bilər" , - deyə əlavə edib.**

Şirkət qeyd edir ki, "Cortical Labs" tərəfindən yaradılan bioloji kompüter mövcud süni intellekt sistemlərindən daha dinamik və davamlıdır.

"Lakin onun potensialını tam olaraq istifadəçilər tətbiq etməyə başladıqdan sonra görmək mümkün olacaq. Bu, elmi və tibbi araşdırmalar sahəsində oyunun qaydalarını dəyişdirəcək" , - deyə şirkət vurğulayıb. Tərtibatçılar bildiriblər ki, CL1 neyron şəbəkələri silisium çipində formalaşır və əslində daim inkişaf edən bir orqanizm kimi fəaliyyət göstərir. Kaqan "Bu qədər sürətlə və çevik şəkildə öyrənə bilən bir sistem yoxdur. Məsələn, "ChatGPT" kimi süni intellekt sistemlərinin çiplərindən tamamilə üstün olduğunu iddia edə bilərik" , - deyə açıqlayıb.

Bioloji kompüter nəzarət olunan temperatur, qazların dövriyyəsi və qarışdırılması üçün nasoslar, materialın saxlanması üçün xüsusi yer və dalğaların filtrasiya edilməsi üçün sadə, lakin sabit avadanlıqla təchiz olunub.

Hazırda "Cortical Labs" bioloji neyron şəbəkələrindən ibarət ilk serveri hazırlayır. Bu server 30 ayrı CL1 modulundan ibarət olacaq. Şirkət serverin yaxın aylarda istifadəyə verilməsini və daha sonra yeni hissələrlə tamamlamağı planlaşdırır. CL1 şəxsi biokompüterlərinin 2025-ci ilin ikinci yarısında satışa çıxarılması gözlənilir. İlk mərhələdə bir blokun qiyməti 35 min dollar olacaq.

# Leninin istifadə etdiyi "Rolls-Royce" bərpa olunacaq




**Vladimir Leninə məxsus olan "Rolls-Royce" avtomobili Rusiyanın Sankt-Peterburq şəhərində bərpa ediləcək. Bu barədə "Peterburq Gündəliyi" nəşri məlumat yayıb. Avtomobil 1916-cı ildə İngiltərədə istehsal olunub. Bu barədə əminliklə danışmaq mümkündür, çünki muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılan eyni seriyalı avtomobillərin zavod nömrələri mövcuddur.**

Mənbənin sözlərinə görə, "Rolls-Royce" avtomobili "Eyni planetdə", "Avroranın yaylım atəşi" və "Altı iyul" filmlərinin çəkilişlərində istifadə edilib. Daha sonra avtomobil Mərmər Sarayında eksponat olaraq sərgilənib. Bununla belə, avtomobilin kosmetik təmiri 1995-ci ilin sonunda "Lenfilm" studiyasında həyata keçirilib. Sankt-Peterburq Dövlət Tarix Muzeyinin bərpa emalatxanasının rəhbəri İlya Solovyovun sözlərinə görə, avtomobilin bəzi hissələri orijinal deyil. Məsələn, avtomobilin mühərriki QAZ-51 ilə əvəzlənib. Bundan əlavə, avtomobil sovet istehsalı olan şassi ilə təchiz olunub.

Mütəxəssis bildirib ki, bərpa olunmuş avtomobil 2026-cı ildə təqdim ediləcək və lak boya örtüyü zərər görməsin deyə, avtomobil yalnız qızdırılan otaqda sərgilənəcək.

# Qocalmağı geri qaytara biləcək GEN TAPILDI - Alimlərdən yeni kəşf



**Osaka Universitetinin tədqiqatçıları qocalmanı hüceyrə səviyyəsində geri qaytara biləcək əsas protein kəşf ediblər. Milli.Az türk mediasına istinadla xəbər verir ki, araşdırmalara görə, AP2A1 adlı zülal alt bölməsi qocalmış hüceyrələrin unikal strukturunu formalaşdırmaqda mühüm rol oynayır. Bu zülalın yatırılması qocalmanı geri qaytarır, artması isə qocalmanı sürətləndirir.**

Tədqiqatın aparıcı müəllifi Pirawan Chantachotikul hüceyrələrin ölçüsünü necə saxladıqlarını başa düşməyə çalışdıqlarını qeyd edib. Xüsusilə, qocalmış hüceyrələrdə stres lifləri daha qalın olur ki, bu da hüceyrələrin böyük ölçüsünü qorumağa kömək edir. AP2A1 zülalının və onun əlaqəli integrin zülalının hüceyrə strukturunda mühüm rolu olduğunu aşkar edən alimlər bu kəşfi qocalma və yaşlanma ilə əlaqəli xəstəliklər üçün yeni müalicə üsullarının inkişafına töhfə olaraq qiymətləndiriblər.



## Dünyanın ən yaşlı qadın bərbəri 108 yaşındadır

**Yaponiyanın 108 yaşlı sakini Sitsui Hakoisi dünyanın ən yaşlı qadın bərbəri kimi tanınıb. Bu titul "LongeviQuest" şirkəti tərəfindən təsdiqlənib. Oxu.Az Ginnesin Rekordlar Kitabının saytına istinadla xəbər verir ki, Hakoisinin bərbər salonu Yaponiyanın Totigi prefekturasında yerləşir. Salonunda II Dünya müharibəsindən əvvəlki dövrlərə aid qayçılar saxlanılır.**

S.Hakoisi 1934-cü ildə 18 yaşında bərbər olmaq üçün imtahan verib. O, 1916-cı il noyabrın 10-da dünyaya gəlib.

## Bethovenin saçları bəstəkar barədə 200 illik sirrə aydınlıq gətirdi



**Alman bəstəkarı Lüdviq van Bethovenin saçlarında tapılan qurğuşun onun sağlamlığının pisləşməsinə səbəb olan mümkün amil ola bilər. Bu barədə ZDF telekanalı Kembric Universiteti rəhbərliyindəki beynəlxalq alimlər qrupu tərəfindən aparılan tədqiqatı əsas götürərək xəbər verib. Bəstəkar eşitmə itkisindən, mədə spazmlarından, şişkinlikdən və ishaldan əziyyət çəkirdi, lakin bu narahatlıqların səbəbləri 200 ildən çox müddət ərzində sirr olaraq qalmışdı. Bu boşluğu doldurmaq məqsədilə tədqiqatçılar Bethovenin iki orijinal saç telini araşdırıblar və təhlil üçün ABŞ-nin Mayo Klinikasında aparılan analizlərdən istifadə ediblər. Tədqiqatda kiçik miqdarda materialdan istifadə olunub: saçlar yuyulub, qurudulub və azot turşusuna batırılıb.**

Nəticələr göstərib ki, bəstəkarın saçlarında tapılan qurğuşun səviyyəsi müasir normalardan əhəmiyyətli dərəcədə yüksək olub. Laboratoriya direktoru Pol Canetto bildirib ki, bu, bəstəkarda mədə ağrıları və həzm problemləri ilə əzab çəkməsinin səbəbi ola bilər.

Qeyd edilir ki, qurğuşun zəhərlənməsi XIX əsrdə geniş yayılmışdı. Toksikologiya tarixçisi Ronen Lebşteyn izah edib ki, qurğuşun müxtəlif gündəlik əşyalarda və ucuz şərablarda mövcud idi. Məlumdur ki, Bethoven gündə bir şüşə şərab içirdi, bu da onun bədənində qurğuşun yığılmasına səbəb ola bilərdi.

Bununla belə, bəzi tədqiqatçılar qurğuşunun Bethovenin eşitmə itkisininin tək səbəbi olaraq göstərməyə şübhə ilə yanaşırlar, çünki eşitmə problemləri artıq 27 yaşında başlayıb, analiz edilən saçlar isə bəstəkarın həyatının daha sonrakı dövrünə aiddir.

Canetto bildirib ki, yaş keçdikcə bədənin içində qurğuşunun miqdarı artaraq, bəstəkarın vəziyyətinin pisləşməsinə səbəb ola bilərdi. Lakin bütün xəstəliklərinin və ölüm səbəblərinin tam təsdiqlənməsi yalnız onun cəsədinin ekshumasiya edilməsi ilə mümkün ola bilər ki, bu isə hazırda mümkün deyil.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABÌROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yenì Müsavat"ın kompüter mərkəzində yığılıb, səhìfələnìb, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lìsenziya N: B 114
SAYI: 1.500